www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 may 2015-ci il Bazar ertəsi № 112 (6140) Qiyməti 40 qəpik

**Xəbər**

**Norveçli mühacir Hüseyn Abbaszadənin inanılmaz dramı...**

yazısı səh.15-də

**Gündəm**

**Bu həftə əfv gözləntiləri gerçəkləşə bilər**



Prezidentin 28 Mayla bağlı sərəncam verəcəyi ehtimalı var; hüquq müdafiəçiləri nikbindir...

yazısı səh.3-də

**"Eurovision"un 60-cı qalibi İsveç oldu**

Elnur Hüseynov ilk onluğa da düşə bilmədi; Azərbaycan ən yüksək balını Rusiyaya verdi, Rusiya isə...

yazısı səh.14-də

**Vergi borcu olan şirkətlər istintaqa cəlb edilə bilər**

yazısı səh.6-da

**Yanan binada ev sahibləri ilə kirayənişinlər arasında problem böyüyür**

yazısı səh.3-də

*Elxan Şahinoğlu:*

**"Riqadakı tədbiri ATƏT-in Lissabon sammitinə bənzədirəm..."**

yazısı səh.9-da

**Vicdan məhbusları Avropa Məhkəməsinə hazırlaşır**

yazısı səh.3-də

*Ekspert:*

**"Mərkəzi Bankı çökdürürlər..."**

yazısı səh.6-da

**Türk dili də Avropa Şurasının rəsmi dili olacaq**

yazısı səh.12-də

**Dərmanların tərkibi ilə bağlı şok iddia**

yazısı səh.13-də

**Yazarlardan 19 may faciə qurbanlarına hörmətsizlik**

yazısı səh.4-də

**"İŞİD-in nüvə silahı əldə etməsi mümkün deyil" - təhlükəsizlik eksperti**

yazısı səh.12-də

## Bölgənin açar ölkəsi uğrunda rəqabət sərtləşir

# PUTİNİN AZƏRBAYCANLA BAĞLI SONUNCU PLANI

Rusiyanın öz iqtisadiyyatını xilas eləmək və dirçəltmək üçün neft ölkələri ilə bağlı 3 ssenarisinin olduğu deyilir; Bakı ilə Moskva arasında "mehriban düşmənçilik" dövrü bitir?..



Toğrul İsmayıl

yazısı səh.8-də

## Generalın qardaşının və Talıbovun qohumunun həbsinin sirri

"Yanğın" daha iri məmurların çevrəsinə çatdı; Qəzənfər Novruzovun həbsi Vasif Talıbovun hakimiyyətə əvvəlki illərdəki qədər təsiri qalmadığını sübut etmiş oldu; Avropa Oyunlarından sonra hakim komandada gözlənilən ciddi kadr dəyişikliyi MR rəhbərliyindən də yan keçməyə bilər...

yazısı səh.5-də



**Hafiz Məmmədov yerini gizlədir**

yazısı səh.5-də



Yavər Camalov

**Nazirin qardaşı "Yeni Müsavat"a məktub yolladı**

yazısı səh.10-da



*Fazil Mustafa:*

**"Yanğın hadisəsinin təxribat olduğuna inanıram..."**

yazısı səh.7-də

**25 may 2015**



## Almaniyada Azərbaycandakı siyasi məhbuslarla bağlı aksiya...

**Mayın 23-də Almaniyanın Münster şəhərində bir qrup azərbaycanlı aksiya keçirib. Aksiyanın keçirilməsinə səbəb son zamanlar Azərbaycanda müxalif düşüncəli insanlara qarşı hakimiyyətin yürütdüyü siyasət olub.**

"Azərbaycanda siyasi məhbuslara azadlıq!"" şüarı ilə keçirilən aksiyada iştirakçılar əllərində siyasi məhbusların fotolarını tutublar. "Siyasi məhbuslara azadlıq!", "Avropa, Azərbaycanda-kı rejimlə əlaqəni kəs!" kimi şüarlar səsləndiriblər. Azərbaycanda siyasi vəziyyət barədə məlumatlandırıcı bukletlər paylanılıb. İnsanların böyük marağına səbəb olan aksiyada həmvətənlərimiz yaxından iştirak ediblər. Aksiya təşkilatçıları bu kimi aksiyaların davamlı olacağını nəzərdə tuturlar. Aksiya haqqında alman mətbuatında xəbərlər gedib.

❑ Cavanşir ABBASLI

## QAT-dan erməni idmançılara sərt xəbərdarlıq

**Qarabağ Azadlıq Təşkilatı (QAT) erməni idmançılarının Bakıda keçiriləcək I Avropa Oyunlarında iştirakına dair Ermənistan tərəfinin yaydığı məlumatlarla əlaqədar bir daha etiraz yayıb.**

Qurumdan "Yeni Müsavat"a göndərilən müraciətdə deyilir: "Bir daha xəbərdarlıq edirik ki, işğalçı Ermənistanın hər hansı nümayəndəsinin, o cümlədən idmançılarının Azərbaycana səfəri yolverilməzdir. Ermənistan Azərbaycan torpaqlarını işğal etməklə beynəlxalq hüquq normalarını pozub, özünü bütün bəşəri dəyərlərdən kənarda qoyub. Ermənistanın Azərbaycanda keçirilən hər hansı tədbirdə təmsil olunmağa mənəvi haqqı yoxdur. Onlar işğalçı, terrorçu hərəkətləri ilə bu haqqı çoxdan itiriblər".

QAT-ın bəyanatında daha sonra bildirilir: "Biz Beynəlxalq Olimpiya Təşkilatından, I Avropa Oyunlarının təşkilatçılarından, Azərbaycan hakimiyyətindən bir daha tələb edirik ki, ermənilərin Bakıya səfərinə imkan verməsinlər. Biz öz növbəmizdə ermənilərin öz murdar, xəstə nəfəsləri ilə Avropa Oyunlarının sağlam mühitini korlamamaları üçün bütün vasitələrdən istifadə edəcəyimizi bildiririk. Ermənilərə isə bildiririk ki, bəsdir bu qədər həyasızlıq etdikləri, Bakıya gəlmək fikirlərindən daşınsınlar. Onları Bakıda gözləmirlər, onlar arzuolunan qonaq deyillər".

QAT daha sonra daha kəskin mövqe ifadə edib: "Biz ermənilərin Bakıya dəvət olunmasında, gələrlərsə, qarşılanmasında, onlara xidmət göstərilməsində iştirakı olmuş və olacaq hər kəsi şəhidlərimizin ruhları qarşısında lənətləyirik. Biz hər kəsi ermənilərin gəlişinə fəal etiraz etməyə çağırırıq. Bu, hər birimizin şərəf işidir".

❑ Vüqar MURAD


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Elm" tədris mərkəzi**

**MAGIC LANGUAGES**

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Narazı sakinlərin Abid Şərifovla görüşündə gərginlik

**Baş nazirin müavini Abid Şərifovun paytaxtın Nobel prospekti, Zığ yolunda yanan binanın narazı sakinləri ilə görüşü olub.**



İnterpress.az-ın hadisə yerində olan əməkdaşının sözlərinə görə, narazı sakinlər Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədovla bərabər ilə ərazini gəzən Abid Şərifova onları narahat edən məsələləri çatdırıblar.

Sakinlərlə görüşdə müəyyən gərginlik yaşanıb. Sakinlər binanın təmiri, kompensasiya ödənməsi kimi məsələləri qaldırsalar da, Abid Şərifovun narazı insanlarla kobud rəftarı diqqət çəkib. Belə ki, Abid Şərifov sakinin sözlərini yarımçıq kəsərək "Nağıl danışma" deyib və digər sakinlərə narazılıqlarını bildirməyə imkan verməyib.

Görüş zamanı məlum olub ki, yanan bina və ətrafdakı bütün binalarda balkonların bağlanması tapşırığı verilib. Bu isə yerli sakinlərin narazılığına səbəb olub. Onlar balkonların bağlanmasının ancaq sakinlərin istəyi ilə fərdi qaydada həyata keçirilməsini tələb edirlər.

## Fransa GMO meyvə və tərəvəzlərdən imtina edir

**Fransada Amerika Birləşmiş Ştatlarına məxsus "Monsanto" şirkətinə qarşı etiraz aksiyası keçirilib. Anspress-in məlumatına görə, şirkət genetikası dəyişdirilmiş meyvə-tərəvəz istehsalı ilə məşğuldur və dünyaya əksər ölkələrinə öz məhsullarını ixrac edir.**

Ölkənin paytaxtı Parislə yanaşı bir neçə şəhərdə keçirilən aksiyaya minlərlə insan qatılıb.

Fəallar beynəlxalq ictimaiyyəti genetikası dəyişdirilmiş məhsulların insan sağlamlığa qarşı vurduğu ziyanına diqqətini cəlb etməyə çalışıblar.

Etirazçılardan biri Sofi Malaponti deyir ki, indi sağlam mühitə yaşamaq olduqca çətin və mürəkkəbdir. İstehlakçılar yerli orqanik məhsullar istəyirlər. Məsələnin müsbət həlli yolu insanların bu ehtiyacını təmin etməkdir.

"Monsanto" şirkəti 2009-cu ildə Forbes jurnalı tərəfindən ilin şirkəti elan edilmişdi.

## Anomal istidən 230-dan çox adam öldü

**Hindistanın şimal, cənub və şərq hissələrinin əhalisi anomal istilərdən əziyyət çəkir. Anspress-in məlumatına görə, Andxra Pradeş və Telanqana ştatlarında anomal isti 150-dən çox insanın ölümünə səbəb olub. Bununla da, son 5 həftə ərzində istidən ölənlərin sayı 230-u ötüb. Ölənlərin əksəriyyətinin yaşayış yeri olmayan şəxslərin olduğu bildirilir.**

Kəlküttə və Kanpur kimi iri şəhərlərin sakinləri də havanın temperaturunun kəskin artmasından əziyyət çəkirlər. Burada hərarət 40 dərəcə Selsini ötüb. Meteoroloqlar havanın temperaturunun yaxın günlərdə artacağını proqnozlaşdırırlar. Yerli hakimiyyət qurumları əhaliyə evlərini tərk etməmyi tövsiyə edir.

Hindistanın əksər bölgələrində may ayı ilin ən isti ayı hesab olunur və bu zaman havanın temperaturu 40 dərəcədən yuxarı olur.

## Bakı funikulyoru turistlərini gözləyir



**Bakı funikulyoru I Avropa Oyunları zamanı ölkəmizə gələcək turistlər üçün doğma şəhərimizin daha bir özəl rəmzi sayıla bilər. "Trend"in məlumatına görə, 1960-cı ildə fəaliyyətə başlayan funikulyor 2012-ci ildə yenidənqurma və təmir işlərindən sonra yenidən paytaxt sakinlərinin və qonaqların istifadəsinə verilib.**

Bakı funikulyoru kompüter sistemi ilə idarə olunur. Hər hansı bir texniki nasazlıq aşkarlandıqda dərhal mərkəzə məlumat ötürülür. Beləcə, baş verə biləcək problemin qarşısını vaxtında almaq mümkün olur.

Xüsusi rahatlığı ilə seçilən vaqonlar isə sərnişinlərin ətrafı seyr etmələri üçün şüşəbəndlə əhatələnib. Funikulyorun 2 stansiyası var: "Bəhram Gur" və "Şəhidlər Xiyabanı".

Bu iki stansiya arasında rahat vaqonlarda hərəkət edən şəhərimizin sakinləri və qonaqları isə İlk Avropa Oyunlarına ev sahibliyi edəcək Bakının təkrarolunmaz mənzərəsini seyr edə biləcəklər.

## Anomal istidən 230-dan çox adam öldü


**Hindistanın şimal, cənub və şərq hissələrinin əhalisi anomal istilərdən əziyyət çəkir. Anspress-in məlumatına görə, Andxra Pradeş və Telanqana ştatlarında anomal isti 150-dən çox insanın ölümünə səbəb olub. Bununla da, son 5 həftə ərzində istidən ölənlərin sayı 230-u ötüb. Ölənlərin əksəriyyətinin yaşayış yeri olmayan şəxslərin olduğu bildirilir.**

Kəlküttə və Kanpur kimi iri şəhərlərin sakinləri də havanın temperaturunun kəskin artmasından əziyyət çəkirlər. Burada hərarət 40 dərəcə Selsini ötüb. Meteoroloqlar havanın temperaturunun yaxın günlərdə artacağını proqnozlaşdırırlar. Yerli hakimiyyət qurumları əhaliyə evlərini tərk etməməyi tövsiyə edir.

Hindistanın əksər bölgələrində may ayı ilin ən isti ayı hesab olunur və bu zaman havanın temperaturu 40 dərəcədən yuxarı olur.


## Türkiyədə terrorçu qruplaşmanın üzvləri həbs edilib

**Türkiyədə 14 nəfər terrorçuluqda şübhəli bilinərək həbs edilib. Anspress-in məlumatına görə, həbs edilənlər Kürd Fəhlə Partiyasının (PKK) törəməsi olan YDG-H qruplaşmasının üzvləri olublar.**

Polis törəmə qruplaşmanın şəhər mərkəzinə və bir neçə digər ünvanlara hücum edəcəyi haqqında məlumat əldə edəndən sonra əməliyyat keçirib. Nəticədə 19 nəfər saxlanılaraq polis bölməsinə aparılıb. Lakin saxlanılan 19 nəfər şübhəlidən 14-ü həbs edilsə də, 5 nəfər yoxlamadan sonra azad edilib.

Polis axtarış zamanı 1 tapança, çoxlu sayda molotov kokteyli və əldə düzəldilən partlayıcı maddələr də aşkarlayaraq ələ keçirib.

## Növbəti qəbul imtahanları keçirilib

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) mayın 24-də ali təhsil müəssisələrinə qəbul olmaq istəyən əvvəlki illərin məzunları üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirib. Komissiyanın mətbuat xidmətindən verilən məlumata görə, imtahan Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 29 binada aparılıb.**

İ Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, abituriyentlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. TQDK-da müstəqil ekspertlər tərəfindən imtahanda abituriyentlərə təqdim olunmuş test tapşırıqlarının ekspertizası da aparılıb. Dünən həmçinin, "Space" telekanalında canlı yayımlanan "Abituriyent" verilişində TQDK-nın məsul əməkdaşları və ekspertlər imtahanda istifadə olunmuş sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib. İmtahanda istifadə olunmuş sualların düzgün cavabları eyni zamanda TQDK-nın internet saytında və facebook səhifəsində yerləşdiriləcək.

İmtahan vermiş abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri TQDK-nın internet saytında yerləşdiriləcək. Abituriyentlər imtahan nəticələri barədə məlumatı həmçinin mobil telefonla iş nömrələrini 7727 nömrəsinə göndərməklə öyrənə biləcəklər.

## Rusiya Azərbaycanda dərman istehsal edəcək

**Rusiyanın əczaçılıq şirkətləri Azərbaycana dərman ixracını genişləndirəcəklər. Bu barədə Rusiyanın Azərbaycandakı ticarət nümayəndəsi Eldar Tlyabiçev məlumat verib. Onun sözlərinə görə, Rusiyanın əczaçılıq şirkətlərinin təmsilçiləri artıq Bakıda da olub və Azərbaycan Səhiyyə Nazirliyinin, həmçinin yerli şirkətlərin nümayəndələri ilə görüşlər keçiriblər.**

"Rusiyada istehsal olunan dərman preparatlarının ən geniş çeşiddə Azərbaycana ixracı barədə razılıq əldə olunub" - deyə Tlyabiçev bildirib. O, əlavə edib ki, Rusiya Azərbaycanda dərman istehsalına başlamaqda da maraqlıdır: "Lakin bu ideya Rusiyanın sənaye və ticarət naziri Denis Manturovun Azərbaycana gözlənilən səfəri zamanı daha ətraflı şəkildə müzakirə olunacaq. Bu haqda yalnız bundan sonra konkret danışmaq olar. Nazirin səfərinin vaxtı hələ dəqiqləşdirilməyib. Amma Manturov Azərbaycana yaxın vaxtlarda gələcək. Səfər zamanı Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyi ilə Rusiyanın Sənaye və Ticarət Nazirliyi arasında müvafiq anlaşmanın imzalanacağı gözlənilir" ("Trend")

YENİ MÜSAVAT
N 112 (6140) 25 may 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Bu həftə əfv gözləntiləri gerçəkləşə bilər

## Prezidentin 28 Mayla bağlı sərəncam verəcəyi ehtimalı artıb; hüquq müdafiəçiləri nikbindir; **Arzu Abdullayeva:** "İnanıram ki, prezident qol çəkəcək, əfv olacaq..."

**Son günlər mətbuatın gündəmini zəbt edən əsas məsələlərdən biri də əfvdir. Doğrudur, Binəqədidə baş vermiş məlum faciə bu məsələni bir qədər arxa plana keçirib. Amma bu həftə 28 May Respublika Günü olduğunu nəzərə alsaq, şübhəsiz ki, aparıcı mövzulardan biri yenə əfv olacaq.**

Hüquq müdafiəçiləri məsələdə nikbin görünür. Artıq İnsan Haqları üzrə Birgə İşçi Qrupu 15 nəfərlik əfv siyahısını Əfv Komissiyasına təqdim edib. İşçi Qrupunun üzvü, hüquq müdafiəçisi Arzu Abdullayeva hər şeyin bir nəfərin qərarından asılı olduğunu söylədi: "Mövqeyim bəllidir. İşçi Qrupunun hüquq müdafiəçiləri olaraq, siyahılarımızı təqdim etmişik. Monitorinq qrupu 15 nəfərlik siyahını təqdim edib. Siyahı böyükdür, amma 15 nəfər etmişik. Çünki bilirik ki, seçim etmək lazım gələcək. Daha çox ehtiyacı olan, xəstələr, vaxtı qanunla çatan məhbuslarımıza diqqət ayırmışıq. Qərar bir nəfərdən asılıdır. İstəsə, olacaq, istəməsə, olmayacaq. Əfv siyahısı artıq prezidentin stolunun üstündədir. Hamımız gözləyirik. Mənə elə gəlir ki, ondan asılı məsələdirsə, edəcək. Kimləri azad edəcək, bu bəlli deyil. Ola bilsin ki, siyahıya kimisə əlavə etsin, kimisə poza da bilər siyahıdan".



Arzu Abdullayeva

Hüquq müdafiəçisi əfv məsələsini gündəmdə saxlamağın vacibliyindən də söz açdı: "Bu məsələni gündəmdə saxladığınız üçün sizlərə təşəkkür edirik. İctimai qınaq olarsa, işə təkan verər. Cəmiyyətin bu məsələyə mövqeyi olmalıdır. Atmosfer olarsa, müsbət təkanı olacaq".

Arzu Abdullayeva hazırda əfv məsələsinin gündəmdən düşməsi səbəblərindən danışdı: "Əlbəttə, sönüklük var. Buna səbəb baş verən məlum yanğındır. Ümumi ab-hava çox ağırdır. Hökumətin özünə də böyük problem yaranıb. Çünki binaların örtüklərinin vurulmasına külli-miqdarda pul xərclənib. İndi də bunu sökürlər. Əlavə xərcdir. Atmosfer sönük, ağırdır. Amma bunlar siyasi məhbuslarla bağlı qərara təsir edəcək amil deyil. Hər halda mənfi amil ola bilməz. Qarşıdan Avropa Oyunları gəlir. Ürək ağrıdan situasiyada yarışmaya getmək mənfi amil ola bilər. Hesab edirəm ki, prezident qol çəkəcək, əfv olacaq. Ancaq əmin ola bilmirəm. Çünki daim məntiq axtarırıq, amma hisslərə uyğun qərar çıxarılır".

Hüquq müdafiəçisi Tofiq Yaqublu məsələsinə də toxundu: "Tofiq bəy bizlərin gündəmində birinci yerdə olan məsələdir. Tofiq Yaqublu, İlqar Məmmədov, Hilal Məmmədov, NİDA-çılar və digərlərinin azadlığa çıxmaları bizim üçün çox vacibdir. Adlarını çəkmədiklərim bağışlasınlar. Bütün siyasilər diqqətimizdədir. Bu şəxslərin çıxması üçün səylərimizi göstəririk. Tofiq bəyin qızının ölümü hamımız üçün böyük itki oldu. Nərgizin xətrini həddsiz dərəcədə çox istəyirdik. Mübariz, mehriban insan idi. Allah rəhmət eləsin".

❑ **Cavanşir ABBASLI**

# Vicdan məhbusları Avropa Məhkəməsinə hazırlaşır

## İntiqam Əliyev yarım aydan çoxdur ailəsi ilə görüşə bilmir

**Həbsdə olan Hüquq Maarifçiliyi Cəmiyyətinin (HMC) sədri İntiqam Əliyevin səhhətində yaranan problemlər barədə xəbər verməşdik. Hüquq müdafiəçisinin ailəsi yarım aydan çoxdur ki, onunla görüşə bilmir. Buna səbəb İ.Əliyevin ayaq üstə dayana bilməməsidir.**

İntiqam Əliyevin qızı Nərmin Kamilsoy sosial şəbəkələrdə atasının son durumu ilə bağlı həyəcanlı status paylaşıb: "Atam zəng eləmişdi. Belində problemlər yarandığına, ayaq üstə durmağa çətinlik çəkdiyinə görə, bu həftə də görüşə gedə bilməyəcəyik. Artıq iki həftədən çoxdur ki, görüşə bilmirik. Vəkillər uzun müddətdən sonra görüşə gediblər. Görüş çox qısa olub. Çünki atam çox ayaq üstə dayana bilmir. Müalicə kamera şəraitində, hər hansı bir müayinə olmadan aparılır. Ombudsman Aparatının nümayəndələri baş çəkiblər. Həmişə olduğu kimi, yenə də saytlarında yazıblar ki, heç bir problem yoxdur, hər şey yaxşıdır. Atam ciddi nəzarət altındadır. Məktublar elindən alınır. Atam yanğında ölənlərə görə çox pis olub. Rəhmətə gedənlərin yaxınlarına başsağlığı verdi. Dəstəyini bildirən, məktub yazan hər kəsə təşəkkürünü bildirdi və onları çox sevdiyini söylədi".



İntiqam Əliyev

Müsavat başqanının müavini Tofiq Yaqublu mayın 23-də ailəsi ilə görüşüb. Başqan müavininin qızı Nigar Yaqublu müsavat.com-a görüş barədə danışdı: "Günləri Nərgizi düşünməklə keçir. Nərgizsiz çox ağır və dözülməzdir. Həbsxana yolları tozludur. Məhbuslar hər gün bu tozu udurlar. Bu isə real xəstəlik mənbəyidir. Guya yol düzəldilir. Toz burulğanının içindən keçirik".

Hüquq müdafiəçisi Leyla Yunusun vəkili Elçin Qəmbərov mayın 21-də onunla görüşüb. Vəkil L.Yunusla bağlı problemlərin davam etdiyini söylədi: "Hər şey artıq təkrarçılıqdır. Çünki dəyişən heç nə yoxdur. Səhhəti yaxşı deyil. İstintaq da əvvəlki kimidir".

İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun vəkili Fariz Namazlı hüquq müdafiəçisinin hökmündən verdikləri apelyasiya şikayətinin vaxtını gözlədiklərini qeyd etdi: "Keçən həftə onunla görüşdüm. Elə bir sözü olmadı. Şikayətimizi vermişik. Ədalətli qərar çıxacağına ümid edir".

Vəkil həbsdəki araşdırmaçı jurnalist Xədicə İsmayılla da görüşüb: "Vəziyyəti normaldır. Həbs müddətini artırdılar. Apelyasiya şikayətimiz də oldu və bitdi. Barəsində seçilmiş həbslə bağlı yaxın günlərdə Avropa Məhkəməsinə şikayət göndərəcəyik. Saxlanma şəraiti ilə bağlı bir şikayəti yoxdur. Sadəcə ona xaricdən və ölkəmizdən çoxlu sayda məktublar göndərilir. Həmin məktublar çatdırılmır. Təcridxana rəhbərliyi tərəfindən verilmir. Yalnız bir nəfərin məktubu verilir. Bayraqdarın məsələsi ilə bağlı apelyasiya qərarından kassasiya şikayəti vermişik. Prosesin istintaq yolu ilə aparılmasını istəmişik. Ali Məhkəmə də proses hələ təyin olunmayıb".

Fariz Namazlı hazırda 13 saylı cəzaçəkmə müəssisəsində həbsxana həyatı yaşayan vicdan məhbusları Anar Məmmədli və Əbdül Əbilovla da görüşdüyü bildirdi: "Anar bəyin işindən Ali Məhkəməyə müraciət edilib. Eyni zamanda, Əbdül Əbilovun işindən də yaxın zamanlarda Avropa Məhkəməsinə müraciət edəcəyik. Əbdül ola bilər ki, əfvə düşsün. Doğrudur, Anar Məmmədli əfvlə bağlı müraciət etməyib. Ona görə də, ona ümid yoxdur. Çünki Azərbaycanda adətən, müraciət yazanları əfv edirlər. 13 saylı cəzaçəkmə müəssisəsində qəzetlərlə bağlı ciddi problem var".

❑ **Cavanşir ABBASLI**



Sevinc Fədai

# Yanan binada ev sahibləri ilə kirayənişinlər arasında problem böyüyür

## Jurnalist ev sahibi tərəfindən təhdid olunub; "saxta qəhrəman"ın fırıldağı üzə çıxıb...

**Ötən həftə cəmiyyət və mətbuatın gündəmində olan əsas məsələ Binəqədidə baş verən yanğın hadisəsi oldu. 15 nəfərin həyatını itirdiyi, 50 nəfərin yaralandığı dəhşətli faciədən 6 gün ötür. Bu müddət ərzində yanğınla bağlı yeni-yeni versiyalar meydana çıxdı və hazırda çıxmaqda davam edir. Paralel surətdə ölkə boyu binaların təhlükəli üzlüklərinin sökülməsi prosesi gedir.**

Binada təkcə insan tələfatı olmadı, eyni zamanda, sakinlərə külli-miqdarda maddi ziyan dəydi. Doğrudur, sakinlər artıq yaşayış yerləri ilə təmin olunub, ilkin olaraq, dəyən ziyanın müqabilində kompensasiya alıblar. Məsələ burasındadır ki, bu məsələdə də ciddi problemlər ortaya çıxıb. Belə ki, yanan binada kirayə yaşayanlar kompensasiya almaqda ciddi problemlərlə üzləşiblər. Reallıq budur ki, yaşayış binasının sahibi başqasıdır, amma yanan əşyalar kirayənişinlərə məxsusdur. Kirayə müqaviləsinin bağlanmaması bu cür problemlərin meydana çıxmasına səbəb olub.

Bu cür problemi əsas yaşayan şəxslərdən biri 40 günlük körpəsi ilə ölümün pəncəsindən xilas olunan jurnalist Sevinc Fədaidir. Sevinc xanım müsavat.com-a açıqlamasında ev sahibi tərəfindən təhdidlərə məruz qaldığını bildirib: "Prezident İlham Əliyevin sərəncamında nəzərdə tutulan zərərçəkmişlərin kompensasiyasını ev sahibi bizə vermək istəmir. 2 gündür qərargahda sürünürük. Evdə körpə uşağım var, yanğın zamanı stress yaşamışıq, heç təkrar müayinəyə vaxt tapıb gedə bilməmişik. Elə görünür ki, iş çox uzanır, nəticədə haqqımız olan kompensasiyanı ala bilməyəcəyik. Ev sahibi bizi təhdid edir, onların dedikləri sözlər bizə ən azı yanğın qədər təsir edir. Bizi fürsətdən istifadə etməkdə suçlayırlar. Halbuki yanğında biz əzab çəkmişik, mücadilə sayəsində həyatda qalmağı bacarmışıq".

Jurnalist ev sahibinin verilən təzminatı ödəmək niyyətinin olduğunu da qeyd edib: "O, bizdən istifadə edib pul qazanmağa çalışır. Hacıbala müəllim görüşdə bizə dedi ki, sənəd və şahidlərlə kirayə qaldığınızı təsdiqlədiyiniz halda kompensasiya haqqınızdır, tələb edə bilərsiniz. Hazırda qərargahda kirayə qalan sakinlər toplaşıb öz haqlarını tələb edirlər. Əgər ev sahibi haqqımızı verməzsə, prezidentə qədər müraciət edəcəyik, bu işin axırınadək gedəcəyik. Mən evdə uşağımı qoyub qərargaha gəlmişəm, bu prosesdən başımız açılmır, heç 40 günlük Ucalı yenidən müayinəyə apara bilməmişik, temperaturu qalxıb. Biz yalnız haqqımız olanı istəyirik".

Yaranan problemlə bağlı hüquqşünas rəyini almağı lüzum bildik. Müzəffər Baxış qanunvericiliyə görə, hökmən kirayə müqaviləsinin bağlanılmasının vacib olduğunu bildirdi: "Müqavilə hökmən bağlanılmalıdır. Azərbaycanda kirayə verən bu işdə maraqlı deyil. Çünki onda 14% vergi ödəməlidir. Yanan bina ilə bağlı Nazirlər Kabinetinin 21 may tarixli sərəncamı var. Sərəncama görə, binada faktiki yaşayan şəxsə ziyan ödənilməlidir. Sakin faktiki yaşayan şəxsi nəzərdə tutur. Əmlakdan söhbət gedir. Kirayə müqaviləsi olmasa belə, qonşuların təsdiqi əsas götürülür".

Qeyd edək ki, yaşanan faciədən istifadə edənlər də tapılıb. Belə ki, 21 yaşlı Ağsu sakini Kamran Babayev iki nəfər ölü, iki nəfər canlını yanan binadan çıxardığını, boğularkən FHN-in helikopterləri ilə xilas edildiyini bildirib. İki gün sosial şəbəkələr və mətbuatın "saxta qəhrəmanı" olan bu şəxsin sonradan yalan danışdığı üzə çıxdı. FHN-ə çağırılan Kamran yalan danışdığını və binanı kənardan seyr etdiyini bildirib. Onun atası da oğlunun yalan danışdığını və bunu psixoloji xəstəliyi ilə əlaqələndirib.

Ötən həftəyə damğasını vuran məsələlərdən biri də baş nazirin müavini, yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının sədri Abid Şərifovun jurnalistləri təhqir etməsi oldu. Dövlət rəsmisi jurnalistin şirkətlə bağlı sualına "sənə nə hansı şirkətdi, pressa bunu niyə bilməlidir ki?! Alaba şirkəti, hə, sonra..." kimi sözlərlə verdiyi cavab çoxlu müzakirələrə yol açdı.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 112 (6140) 25 may 2015



# Şərifovun şirkəti - "Alabala"

Elşad PAŞASOY
epashasoy@yahoo.com

*"Nə dəxli var səə?*
*Nə üçün bilməlisən kimdir? Alabala...Soora?*
*Biz müəyyən edirik də...Bunun pressaya dəxli var?*
*Kimdir..? Mənəm, mənim şirkətimdir. Yaz!!!"*

Bu sözləri deyən bir məmur, baş nazirin müavini Abid Şərifovdur, sıradan biri deyil! Leksikona fikir verin: "Səəə nə dəxli var?", "Alabala..." Ardınca da "Yaz!" Yəni jurnalistin yazdığı, göstərdiyi ona "vız geliyor"muş...

Ölkənin problemlərinə cavabdeh şəxslərdən birinin jurnalistlərin salamına əli cibində, saymazyana reaksiyası da ayrı müzakirə mövzusu ola bilərdi. Demirik ki, 15 nəfərin canını alan binanın qarşısına əlində qərənfil gəlməliydi. Əliboş gəlsin, eybi yox, amma həqarətli davranmasın. Bu, təkcə jurnalistlərə, onun hərəkətlərini efirdən izləyənlərə deyil, həlak olanların xatirəsinə hörmətiz davranışdır...

Bəli, 19 mayda baş verən o dəhşətdən sonra hər kəs sabah bu faciənin təkrar olunmayacağına əmin olmalıdır. Hətta balaca Fərəh balamızın yaşıdları da... "Biz müəyyən edirik..." Siz müəyyən edəni də gördük, Xətaidə, Binəqədidə binaları, insanları necə çatır-çatır yandırdılar...

Abid Şərifov özü həmin o penoplast, ya poliuretanla bələnmiş binaların birində yaşasaydı, bütün bunlarla maraqlanmazdımı?

Düzdür, 75 yaşlı Şərifov 20 ildir (!) baş nazirin müavinidir, üstəlik, 60-70-ci illərdə Bakı Baş Tikinti İdarəsində tikinti ustası, iş icraçısı, mühəndis işləyib, yəni nəyi necə etmək lazım olduğunu bilməmiş deyil. Ancaq axı bundan əvvəlkiləri gördük. Çıxıb xalqdan üzr istəmək əvəzinə, "səə nə var" demək...

Bu gün təkcə Bakıda təqribən 140 bina həmin o təhlükəli üzlüklərdən xilas edilirsə, vətədaş bilməlidir ki, sabah onları nə ilə əvəzləyəcəklər, budəfəki üzlük daha dəhşətli yanğına səbəb olmayacaq ki? Bütün bunları bilmək üçün də vətəndaş medianı izləyir. Mediaya verilən cavab elə milyonların gözləntilərinə cavabdır. Deyəsən, unudub, axı ölkə başçısı "məmur vətəndaşın xidmətçisidir" demişdi...

Şəffaflıq olsaydı, bu cür faciələr də yaşanmazdı. Şübhəm yoxdur ki, Abid Şərifov təmir işlərini aparmazdan öncə şirkətlər arasında tender elan olunmalı olduğunu, yalnız tenderi qazanan şirkətin müvafiq razılaşmalar əsasında işə başlamaq şansı qazandığını yaxşı bilir. Eyni zamanda onu da bilməmiş deyil ki, qanunvericiliyə əsasən, tender elanları və yekun nəticələr barədə KİV-də məlumatlar getməlidir. Bəs, elə isə niyə "bunun pressaya dəxli var" deyib? Bunun yalnız bir izahı ola bilər: bəzi məmurlar yerlərində o qədər kök salıblar ki, nə qanuna istinad edirlər, nə vətəndaş haqqı bilirlər, nə efirdən çəkinirlər. Yeri gəlmişkən, biri də vardı "konkret rədd ol" deyirdi, sonra mətbuatı yardıma çağırdı...

Gözlənilən o idi ki, cənab Şərifov heç olmasa prezident səviyyəsində səslənən iradlardan nəticə çıxaracaq. Dövlət başçısı cəmi bir həftə əvvəl ölkə məmurlarını hər şeydən üstün olan insan üçün xidmətə çağırmışdı. Daha deməmişdi gedin hərəniz bir "Alabala" şirkəti yaradıb, millətə "səəə sən var" deyin.

Elə həmin müşavirədə Abid Şərifov ciddi bir səhvə imza atmışdı. Bakıdakı təhlükəli üzlüklərin sökülməsi barədə prezidentin tapşırığına "bəlkə 20 gün gözləyək, Avropa Oyunları bitsin" deməklə. Əslində bu, məmurların vətəndaşa münasibətinin əyani sübutuydu. Uzun müddət ölkədəki fövqəladə hallarla mübarizə komissiyasına rəhbərlik etmiş, baş nazirin müavini statusunu daşıyan bir şəxs hər an növbəti faciələrin baş verə biləcəyi ehtimalının qarşılığında "bəlkə Avropa Oyunlarını keçirək, sonra sökək" deyirsə, bu yanaşmanın özü fəlakətə taydır.

Bu günlərdə hətta Abutalıbov da Şərifovla müqayisədə sınaqdan daha yaxşı çıxdı. Sakinlər, jurnalistlər ona daha nələr demədilər, nələri soruşmadılar. Mer hətta dedi ki, bilsə kimsə həyata qayıdar, əvəzində ölə də bilər. Çoxları bu sözləri ayrı yerə yozdu, artisizm elementləri axtardı, günahını ört-bastır etmək cəhdi saydı, ancaq hər halda dedi, səbrlə müsahibələr verdi. Hətta Xaləddin İsgəndərov da yaxasından yapışan sakinlərə, onu sual yağına tutan media əhlinə "səə nə dəxli var" demək cəsarətində bulunmadı. Ancaq Şərifov nə KİV haqqında qanuna, nə vətəndaş haqqına, nə ölənlərin ruhuna sayğılı davranmadı. Prezident onu "səə nə var" demək üçün göndərməmişdi. Bu ölkə, onun qanunları, insanları ilə öz şirkəti ilə davranrmış kimi davrandı...Alabalasayağı.

Avropa Oyunlarına da 20 gün qalır. Avropa bir məmurun vətəndaşla bu sayaq davranışını görsə, biabır olacağıq. Binanı yeni örtüklə bəzəməyə nə var ki...



# Yazarlardan 19 may faciə qurbanlarına hörmətsizlik...

## Gənc qələm sahibləri tədbiri yarımçıq tərk ediblər; **İntiqam Yaşar:** "Şadlıq sarayından yanan bina görünür..."

**Mayın 22-də Bakıda "Anar" şadlıq sarayında bir qrup yazıçı və şairin iştirakı ilə "Avrasiya Şairləri Antologiyası" kitabının təqdimatında qalmaqal yaranıb. Belə ki, tədbirdə musiqi proqramının olması gənc yazarların etirazına səbəb olub. Onlar bunun mayın 19-da Binəqədidəki yanğında ölən və heç 3-ü də çıxmayan insanların ruhuna hörmətsizlik olduğunu bildirərək, tədbiri yarımçıq tərk ediblər.**

Gənc yazarlar çıxış edərək təşkilatçıları və hüzn günlərində qol qaldırıb rəqs edənləri ciddi şəkildə qınayıb, onların ölkəmizdə baş verən ümumi faciəmizə qarşı belə soyuqqanlı olduqları üçün təəssüf hissi keçirdiklərini bildiriblər.

Qeyd edək ki, gənclərin çıxışından sonra bir neçə şair və jurnalist də tədbiri tərk edib. Tədbirin aparıcıları isə Azərbaycan Yazıçılar Birliyinin üzvləri Qəşəm Nəcəfzadə və Nuranə Nur olub.

Tədbiri tərk edən bəzi gənc yazarların mövqeyini öyrəndik. Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) üzvü İntiqam Yaşar faktı təsdiqlədi: "Biz də qonaq qismində dəvət olunmuşduq. Tədbirin ortasında musiqi ortaya çıxdı. Buna etirazımızı bildirdik. Musiqi, rəqsin yığışdırılmasını tələb etdik. Bizi başa düşmədilər. Çıxış edərək, tədbir iştirakçılarını tənqid etdim. "Ölkə yas içərisindədir" dedim. Etirazımdan sonra oranı tərk etdim. Mükafat hazırlamışdılar. İmtina etdim. Dəhşət orasıdır ki, şadlıq sarayından yanan bina görünür. İnsanın qanı donur. Bu qədər biganəlik insanı dəhşətə gətirir".

Gənc şair kitabın bərbad günündə hazırlandığını, Bəxtiyar Vahabzadənin "Şəhidlər" şeirinin Səməd Vurğunun adından təqdim edildiyini vurğuladı.

Tədbiri tərk edən digər gənc yazar, DGTYB üzvü Emil Rasimoğlu vətəndaşlıq borcundan çıxdığını bildirdi: "Biz üzərimizə düşəni etdik. Kimlərsə bu faciəyə



biganə yanaşa bilər. Amma qəlbində vətəndaşlıq ruhu olanlar dəhşətli faciəni unutmayacaqlar. Biz bununla bağlı etirazımızı davam etdirəcəyik. Yazıçılar İttifaqı bu məsələyə mövqe bildirməlidir. Çünki tədbirin aparıcı və təşkilatçıları bu qurumun üzvləridir".

Tədbiri tərk edən Şahanə Müşfiqin mövqeyi daha təsirlidir: "Şahidi olduğum bəzi hadisələr ədəbiyyatımıza olan inam və ümidlərimi də itirməyimə səbəb oldu. Kitab təqdimatında gördüklərim məni çox incitdi. Əslində bu tədbirdən gözlədiyim çox şey vardı, böyük həvəs və sevgi ilə getmişdim. Ora yığışan insanların hamısı müasir Azərbaycan ədəbiyyatımızın ən üzdə olan simaları, cəmiyyətimizdə yetəri qədər hörmət qazanmış, tanınmış qələm sahibləri, söz adamları idi. Bildiyimiz kimi, bu günlər bütün Azərbaycanda, xüsusən Bakıda matəm havası yaşanmaqdadır. Üç gün öncə məlum yanğın faciəsinin qurbanlarına ağlayan xalqın gözünün yaşı hələ də qurumayıb. Lakin bu gün ziyalılarımızın bir çoxunun bu faciəyə nə qədər yad, nə qədər biganə olduğunu görmək ürəyimi göynətdi, ruhumu incitdi. Sevindirici haldır ki, bu tədbirdə xalqının tərəfində olan, bu faciəni xatırladıb etiraz edənlər də oldu. Onlar çoxlarının bəyənmədiyi, xor gördüyü, özlərinə sərf etməyəndə "sən uşaqsan, təcrübəsizsən" - deyib ağzından vurduğu gənclər idi. Onlar çoxları kimi səssiz qalmağı yox, həqiqəti elə açıq mikrofondan hayqırmağı seçdilər. Tədbirdə rəqs edən həmin şairlərin yaradıcılığının böyük əksəriyyəti mənim gözümdə artıq öz əhəmiyyətini itirdi. Xalqın bu ağır günündə əylənməyi özünə rəva bilən şairin vətən, xalq, haqq-ədalət mövzulu şeirlərinin heç bir dəyəri ola bilməz".

Yazıçılar İttifaqının mətbuat xidmətinin rəhbəri Xəyal Rza keçirilən tədbirlərə görə məsuliyyət daşımadıqlarını bildirib: "Azərbaycan Yazıçılar Birliyində bu günlərdə keçirilən bütün tədbirlərdə faciə qurbanları bir dəqiqəlik sükutla yad edilib Başqa yerlərdə AYB tərəfindən təşkil edilməmiş heç bir tədbirin məsuliyyətini daşımırıq. Azərbaycan xalqının həssas və hüznlü məqamlarında bütün qurumlar və fərdlər diqqətli olmalıdır".

❑ **Cavanşir ABBASLI**

# Avropa Oyunları dövründə aksiyalar olmaya bilər, əgər...

## Hər şey 28 maydan asılıdır; **Elman Fəttah:** "Top hakimiyyətdədir..."

**Ölkəmizdə keçiriləcək Avropa Oyunlarına sayılı günlər qalıb. Hər keçən gün demokratik düşərgə dünyanın diqqətində olacaq yarışmadan istifadə edərək, ölkə hakimiyyətinin qarşısında bir sıra tələblər irəli sürür. Əsas tələblərdən biri də, siyasi əqidəsinə görə həbs edilmiş məhbusların azadlığa buraxılmasıdır.**

Bir çoxları hesab edir ki, iqtidar Avropa Oyunlarına siyasi məhbuslarla getməyəcək. Bunun üçün 28 mayda əfv sərəncamının veriləcəyini iddia edənlər az deyil.

Müsavat Partiyasının da bununla bağlı planları var. Partiya başqanının müavini Elman Fəttah "Yeni Müsavat"a açıqlamasında yarışmada iştirak edəcək ölkə başçılarına müraciət ünvanlayacaqlarını bildirdi: "Müsavatın yarışma ilə bağlı mövqeyi tam aydındır. Məclisin qərarı ilə




Müsavat bəyan edib ki, siyasi məhbuslar buraxılmayacağı halda, Avropa Oyunlarında iştirak edəcək dövlətləri iştirakdan imtina etməyə çağırış edəcək. Biz 28 mayı gözləyirik. Əsas işlərimizdən biri siyasi məhbuslar məsələsidir. Son zamanlar bu məsələni daha da intensivləşdirmişik. Oyunlar ərəfəsində siyasi məhbusların azadlığa buraxılması ilə bağlı çağırış etmişik. Bununla bağlı ayrıca aclıq aksiyası keçirmişik. Son mesajımızı göndərmişik. 28 mayda siyasi məhbusların azadlığa buraxılması ilə bağlı ciddi əfv olarsa, məsələni müzakirə etmək olar. Olmazsa, mövqeyimiz aydındır. Avropa Oyunlarında, xüsusilə, açılış mərasimində iştirak edəcək dövlətlərin, dövlət başçılarının Azərbaycana gəlməmələri ilə bağlı rəsmi müraciətlər göndərəcəyik. Avropa Birliyinin bu barədə açıqlaması oldu. Həmin ölkə başçılarına çağırış olunub ki, siyasi məhbuslar azad olunmayacağı təqdirdə, açılışda iştirak edilməsin".

Elman Fəttah digər siyasi qurumlara da çağırış etdi: "Arzumuz odur ki, digər siyasi partiyalar da Avropa Oyunları məsələsində ən optimal mövqelərini ortaya qoysunlar. Hansı ki, Müsavat bir ildən artıqdır ki, bu məsələni izləyir, mövqeyini bildirir. Bu şəkildə mövqe nümayiş etdirsinlər, yaxud Avropa Oyunları ilə bağlı hər hansı mövqeləri olsun. Top hakimiyyətdədir. Əgər ciddi bir əfv sərəncamı olacaqsa, biz bu məsələni nəzərə alarıq. Çünki əsas tələbimiz siyasi məhbusların azad olunmasıdır".

Müxalif kəsimin digər aparıcı qurumu olan Milli Şuranın da bu məsələdə mövqeyini öyrənməyə çalışsaq da, mümkün olmadı.

❑ **Cavanşir ABBASLI**

# "Yanğın" daha iri məmurların çevrəsinə çatdı

**Bakıda yaşayış binasında baş vermiş yanğınla bağlı həbslər artıq daha iri fiqurların yaxın çevrəsinə çatıb. Binəqədi rayon İcra Hakimiyyəti başçısının sabiq birinci müavini Qəzənfər Novruzovun həbsi geniş rezonans doğurub. Çünki barəsində məhkəmənin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilən Q.Novruzov sıradan biri deyil. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yeznəsi, muxtar respublikanın daxili işlər nazirinin müavini Səbuhi Novruzovun qardaşıdır.**




# Generalın qardaşının və Talıbovun qohumunun həbsinin sirri

## Qəzənfər Novruzovun həbsi Vasif Talıbovun hakimiyyətə əvvəlki illərdəki qədər təsiri qalmadığını sübut etmiş oldu; Naxçıvan Ali Məclisinin sədrinin bundan əvvəl də bir qohumu tutulmuşdu; Avropa Oyunlarından sonra hakim komandada gözlənilən ciddi kadr dəyişikliyi MR rəhbərliyindən də yan keçməyə bilər...

Q.Novruzovun digər qardaşı Vaqif Novruzov da Bakı Yaşıllaşdırma Departamentinin müdiridir. Q.Novruzovun daha bir qardaşı Məhərrəm Novruzov isə Abşeronun sosial müdafiə fondunun rəhbəri vəzifəsində çalışıb. Amma bütün bu adamlar yüksək vəzifələrinə baxmayaraq, V.Talıbovun adının kölgəsində qalır. Təsadüfi deyil ki, Q.Novruzovun həbsi xəbərini əksər elektron media "Vasif Talıbovun qohumu tutuldu" başlığı ilə yayıb.

Məsələnin maraqlı tərəfi həm də budur ki, 2013-cü ilin avqustunda V.Talıbovun xalası oğlu (bəzi mənbələrin xəbərinə görə isə uzaq qohumu), Azərbaycanın sabiq xarici iqtisadi əlaqələr naziri əvəzi işləmiş Nicat Quliyev də həbs edilmişdi. Qanunsuz olaraq odlu silah gəzdirməkdə ittiham olunan N.Quliyev məhkəmədə bütün ittihamları rədd etsə də, 3 il azadlıqdan məhrum edildi. O da mümkündür ki, Talıbov mövqeləri zəiflədiyini bildiyi üçün özünü ona qohum olan adamların müdafiəsi üçün "oda atmaq" niyyətində deyil. V.Talıbovu ehtiyatlı mövqe tutmağa vadar edən ən mühüm səbəb isə prezident İlham Əliyevin mövqeyidir. İddialara görə, N.Quliyevin həbsinin əsl səbəbi onun Milli Şuranın o vaxtkı sədri Rüstəm İbrahimbəyovla telefon danışıqlarıdır. Bu faktı R.İbrahimbəyov da müsahibələrinin birində təsdiqləmiş, N.Quliyevin onunla telefon zənglərinə görə həbsə alındığını demişdi.

Qəzənfər Novruzovun adı indiyədək bir çox qalmaqallarda hallansa da, o, məlum yanğından sonra həbs edilib. Prezident İlham Əliyev dəhşətli yanğınla bağlı iclasda bu faciənin günahkarlarının kimliyindən asılı olmayaraq cəzalandırılacağını bildirmişdi. Yeni prezidentin qəti tapşırığından sonra V.Talıbov qohumunu, general isə qardaşını məsuliyyətdən yayındırmağa çətin ki cəhd edə bilərdilər. Amma bu fakt da dolayısıyla V.Talıbovun hakimiyyətə əvvəlki illərdəki qədər təsiri qalmadığını sübut etmiş oldu...

2012-ci ilin aprelində Binəqədiyə icra başçısı təyin edilən Xaləddin İsgəndərov bir sıra vəzifəli adamlarla, o cümlədən Talıbovun qohumu Q.Novruzovla yola getmirdi. İcra hakimiyyətində yaşıllaşdırma adı ilə 2 milyon manat yeyinti faktından sonra X.İsgəndərov Q.Novruzovla yollarını ayırdı. Hələ o vaxt belə iddialar vardı ki, icra başçısı V.Talıbov kimi qüdrətli adamın qohumunu yalnız öz ambisiyaları səbəbindən sıxışdıra bilməzdi. X.İsgəndərov qaynı olan vergilər naziri Fazil Məmmədova arxalansa belə, V.Talıbovla üz-üzə gələ bilmək gücündə deyildilər.

Sirr deyil ki, V.Talıbovun uzun illərdir ki, Bakıdakı bəzi nazirlərlə münasibətləri gərgindir. O, son aylar Bakıya çox az gəlir və tədbirlərdə iştirak etdikdən dərhal sonra şəxsi təyyarəsi ilə Naxçıvana qayıdır. Vasif Talıbovun əvəzlənəcəyi barədə iddialar da yeni deyil. Məlumatlara görə, V.Talıbovun əvəzlənməsi hakimiyyətin ən üst qatındakı bütün iri siyasi fiqurların planları ilə üst-üstə düşür. Bildirilir ki, Avropa Oyunlarından sonra hakim komanda gözlənilən ciddi kadr dəyişikliyi Naxçıvan rəhbərliyindən də yan keçməyə bilər. Talıbov hakimiyyətə sadiqliyi ilə seçilsə də, onun bəzi idarəçilik metodlar (məsələn, tez-tez iməciliklər keçirməsi, özünə aid təsərrüfatda insanları kölə kimi işləməyə məcbur etməsi və s.) köhnəlik qalığı kimi təkcə yerli deyil, Qərb mətbuatında da tənqid edilir. Amma ən əsas səbəb yuxarıda da qeyd etdiyimiz kimi, onun mərkəzi hakimiyyətlə, hətta əslən Naxçıvandan olan məmurlarla münasibətlərinin gərgin olmasıdır.

Səbuhi Novruzov uzun müddət Naxçıvan Şəhəri Polis İdarəsinə rəisi olub, 2013-cü ilin payızında Naxçıvanın daxili işlər naziri Əhməd Əhmədovun müavini təyin edilib. S.Novruzovun nazirlə münasibətlərinin isti olmadığı deyilir. 2013-cü ilin iyununda prezidentin sərəncamı ilə general-mayor rütbəsi alıb.

Q.Novruzova gəlincə, o, Binəqədidən öncə Səbayel Rayon İcra Hakimiyyəti başçısının müavini olub. Binəqədidə işlədiyi müddətdə isə rayon sakinləri arasında ən çox narazılıq edilən məmurlardan biri olub. İşdən çıxarıldıqdan sonra onun ölkədən qaçdığı barədə xəbərlər yayılmışdı.

Ötən ilin dekabrında onun adı daha bir rüşvət qalmaqalında hallandı. Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin keçmiş hakimi Həsən Əliyevin rüşvət qalmaqalında Q.Novruzovun da adı keçirdi. Gəncədə baş tutan məhkəmədə o, şahid qismində ifadə vermişdi. Məhkəmədə məlum olmuşdu ki, sabiq müavin xaricdən özünün gətirdiyi iki ədəd "Range Rover"in 100 min manat gömrük rüsumunu iş üzrə əsas zərərçəkən olan Ramazan Səlimova ödətmək istəyib...

Mövzunu davam etdirəcəyik.

❑ **"Yeni Müsavat"**

# Hafiz Məmmədov yerini gizlədir

## Beynəlxalq Banka borca görə ölkədən qaçdığı deyilən iş adamı Londonda, yoxsa Almaniyadadır?

**Beynəlxalq Bankdan götürülən kreditlərin mənimsənilməsi ilə bağlı başlanmış cinayət işində adı keçən iş adamı Hafiz Məmmədovun ("Hafka") ölkədən qaçması barədə xəbər ölkə gündəminin əsas mövzularından birinə çevrilib. Xəbərlərə görə, Hafiz Məmmədov barəsində Nəsimi Rayon Məhkəməsi mayın 18-də həbs qərarı versə də, iş adamını həbs etmək mümkün olmayıb. Belə ki, bu qərarın verilməsindən 2 gün əvvəl - mayın 16-da "Hafka" ölkədən qaça bilib. Bu xəbər ictimailəşəndən sonra "Hafka" ilə bağlı müəmma daha da artıb. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov ölkə.az saytına açıqlamasında bildirib ki, bu işlə bağlı Daxili İşlər Nazirliyi ilə əlaqə saxlamaq lazımdır.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov isə bu məsələdən məlumatsız olduğunu vurğulayıb: "Məndə bu barədə nə yazılı, nə də şifahi heç bir məlumat yoxdur". "Hafka"nın ölkədən qaçması xəbəri yayıldıqdan sonra onun prezidenti olduğu klubun saytında "Hafiz Məmmədov "Neftçi" ilə baş tutan Premyer Liqa matçından sonra komanda üzvlərini təbrik edib" başlıqlı xəbər yerləşdirilib. Bununla da o, guya ölkədə olduğu, oyunçuları təbrik etdiyi rəyini yaratmağa cəhd edib. Halbuki "Neftçi" ilə "Bakı"nın oyunu mayın 22-də keçirildiyi halda, "Hafka" mayın 16-dan ölkədən çıxıb. Onun təbrik mətnini oyundan sonra deyil, qaçması barədə məlumatından sonra yayması da "Hafka"nın məqsədinin məhz ictimaiyyəti çaşdırmaq olduğunu göstərib. Maraqlıdır ki, bir neçə saat sonra bu təbrik mətni klubun rəsmi saytından çıxarılıb.


Hafiz Məmmədov

H.Məmmədov virtualaz.org saytına qısa açıqlamasında yayılmış xəbərlərin doğruluğunu təsdiqləyib.

"Hafka" ölkədə olmadığını, ancaq qaçmadığını deyib:"Mənim ölkədən qaçmağım haqda KİV-lərdə yayılan informasiyalar tamamilə yalandır. Hazırda Londondayam, müalicə alıram. Ayağımda problemlər var. Yaxın günlərdə Bakıya dönəcəyəm".

"Hafka" onun cinayət məsuliyyətinə cəlb olunacağı haqda məlumatları da təkzib edib: ""Qayıdandan dərhal sonra sizinlə görüşməyə və bütün suallarınıza cavab verməyə hazıram".

Barəsində həbs qətimkan tədbirinin seçildiyi və ölkədən qaçdığına dair məlumatlar yayılan bir dövrdə "Hafka"nın "xəstələnərək" Londona getməsi təsadüfə oxşamır. İkinci bir tərəfdən, "Hafka" müalicəyə niyə Londonu seçməsi maraq doğurur. Çünki Avropada ən yaxşı müalicə İngiltərədə yox, Almaniyadadır. Üstəlik, London rütubətli şəhər kimi ayaq xəstəlikləri olanlar üçün uyğun məkan deyil. "Yeni Müsavat"a verilən məlumata görə, "Hafka" Londonda olmasını deməsi şübhəlidir. Onun Almaniyada olduğu iddia edilir. Qeyd edək ki, "Hafka"nın qardaşı Zeynal Məmmədov da xaricdə yaşayır. Məlumata görə, Zeynal Məmmədov qardaşından ayrılaraq Latviyada trikotaj fabriki alıb.

Hələ halda, bu həftə "Hafka" ilə bağlı müəmmaya aydınlıq gələcəyi gözlənilir.

❑ **"Yeni Müsavat"**

# Çox dəxli var, Şərifov!



**Xalid KAZIMLI**

**Abid Şərifovun bəxti onda gətirdi ki, qarşısındakı təcrübəsiz, nəvəsi yerində gənc jurnalistlər idi. Vəzifəsi o yana dursun, o gənc jurnalistlər 76 yaşlı ahıl adama kobudluq edə bilməzdilər. Əslində isə o, öz sözləri və hərəkəti ilə ağır cavabı haqq eləmişdi.**

Gənc jurnalistlərin yerində bir nəsil əvvəlki jurnalistlər olsaydı, Abid Şərifovun vəzifəsinə də baxmazdılar, yaşına da, deyərdilər, yanan binada iş görəcək şirkətin bizə, ictimaiyyətə çox dəxli var.

Deyərdilər, bu cür altdan-altdan iş görürsünüz ki, o boyda binalar üzdən-üzdən, içdən-içdən yanır, siz də bir kənarda dayanıb faciədən sarsılmış kimi Hollivud pozları verirsiniz.

Deyərdilər, bunlar o tərəfə dursun, jurnalistlə jurnalist kimi davranmağı öyrənin, onlar sizin ofislərinizin mətbuat xidmətlərinin işçiləri və ya muzdla işləyən mirzələr deyil, adi və sadə bir sual veriblər, zəhmət çəkib cavab verməlisiniz.

Deyərdilər, səhərdən axşama qədər söz qoşub, söz oynadan jurnalistin sualına "Alabala şirkətidir" deyə, guya ki, ironik cavab verirsiniz, ancaq bu, əyalət kinayəsindən başqa bir şey deyil, ciddi olun, ciddi cavab verin.

Şərifovun o hərəkətinin qabağında səs-səsə verərək, onun sözünü kəsə, səsini batıra, özünü pərt edə biləcək xeyli jurnalist tanıyıram. Baş nazir müavininin bəxtindən həmin gün onlar orda yox idi.

Nəticədə elə çıxdı ki, bu gün-sabah təqaüdə çıxacaq bir yüksək vəzifəli məmur cəmiyyətdə xüsusi funksiyası və missiyası olan jurnalistləri aşağılayır, onlara heç kim olduqlarını göstərir.

Amma elə deyil. Son 20 ildə daima sıxıntı içində, basqı altında yaşayıb-işləmiş jurnalistlərimiz nələr görməyiblər.

Onları təhqir edib kabinetindən qovan olub, gün gəlib, ismarış göndərib ki, problemi var, müsahibə vermək istəyir.

"Konkret rədd ol" deyən, müstəqil və müxalifətçi jurnalistləri adam yerinə qoymayan olub, gün gəlib, məhkəmə zalında dəmir barmaqlıqlar arasından jurnalistlər tərəfə boylanaraq soruşub: "Bizim jurnalistlər hələ gəlməyibmi?".

Jurnalisti kabinetində sıxma-boğmaya saldıran, acılayan, müsahibə verməkdən imtina edən məmur olub, vəzifədən çıxarılandan sonra redaksiyaları qapı-qapı gəzib müsahibə vermək istəyib, bu vəsilə ilə özünü duruya çəkəcəyinə ümid edə-edə redaktorları üzdən-gözdən salıb.

Belə görünür ki, sırasında Şərifov da olmaqla bir sıra azərbaycanlı məmurlar hələ də anlamırlar ki, birincisi, jurnalistlərlə bu cür davranmaq qanun və etika pozuntusudur, ikincisi, çox təhlükəli hərəkətdir.

Demokratik ölkələrdə heç bir özündən deyən dövlət xadimi belə hərəkət edərək arxasında dura bilməz, həmin o aşağıladığı jurnalistlər onun qoparağını elə götürərlər ki, adam özünü istefada, məhkəmələrdə görər.

Nümunələr çoxdur. Neçə-neçə prezidentin, baş nazirin və digər nazirlərin karyerası məhz ağızlarından buraxdıqları "quş"a görə sona çatıb.

Abid Şərifovun (eləcə də digər qaba məmurların) bəxti bir də onda gətirib ki, ölkədə avtoritar rejim mövcuddur və o, hakimiyyət komandasının fəaliyyətinə şəxsi sədaqət prizmasından qiymət verir. Sədaqətli ol, iddialı olma, nə qədər kobudluq edirsən, et, bacardığın qədər korrupsioner ol, problem olmayacaq.

Cəzalandırılan oliqarxlar və məmurlar isə heç də ümümxalq mənafeyinə zidd hərəkətlərinə, dövlət maraqlarına qarşı əməllərinə görə yox, şəxsi sədaqətlərinə şübhə yaratdıqlarına, toxunulmaz hesablardan oğurluğa həddən artıq aludə olduqlarına görə bu aqibəti yaşayıblar.

Nəhayət, hamı anlamalıdır ki, jurnalistlər bu ölkədə hamını sorğu-suala çəkən mühüm işlər üzrə müstəntiqləri belə sual yağışına tuta bilirlər. Onların belə bir ekskluziv hüquqları var.

Əlbəttə, jurnalistlərlə necə davranmaq məsələsi bir az da tərbiyə, mədəniyyət və dünyagörüş məsələsidir. Əgər adam təbiəti etibarı ilə qaba adamdırsa, o, jurnalistlərlə də elə davranacaq, tabeçiliyində olanlarla da, şikayətçilərlə də. Belə adamlar yalnız tabe olduqları adamların qabağında mütiцəsinə dururlar, quzu kimi olurlar. Rəhbərləri onları ahıl yaşlarında ştanq qaldırmağa vadar eləsə, qaldıracaqlar, itələyib hovuza salsa, üzəcəklər.

Özünü etik çərçivələrə sığdıra bilməyən, mədəni olmayan adamların yüksək vəzifələrdə işi olmamalıdır.

YENİ MÜSAVAT
N 112 (6140) 25 may 2015




## “Mərkəzi Bankı çökdürürlər”

### Ekspert: “Bundan sonra Mərkəzi Bankın sərəncamında cəmi 20 milyon manat qalacaq”

**“Deyəsən, Mərkəzi Bankın özünü də çökdürürlər. ”Mərkəzi Bank haqqında" qanuna edilən üç mühüm dəyişikliyin həqiqi mahiyyəti budur". Ekspert Əkrəm Həsənov bu fikirdədir. Onun sözlərinə görə, Mərkəzi Bankın vəsaitlərinin böyük hissəsi əlindən alınır: “Bu da iki şeydən xəbər verir. Birincisi, Mərkəzi Bank rəhbərliyi etimadı itirib. Deməli, bank sistemində vəziyyət doğrudan da çox ağırdır. İkincisi, dövlətə xərcləri ni ödəmək üçün əlavə vəsait tələb olunur”.**

Hüquqşünas sözügedən üç dəyişikliyin mahiyyətindən də danışıb: “10-cu maddə üzrə deyim ki, Mərkəzi Bankın nizamnamə kapitalı 10 milyon manatdır. Bəzilərinin dediyi kimi, 50 milyard deyil. Mərkəzi Bankın nizamnamə kapitalı kommersiya banklarının kapitalından 5 dəfə aşağıdır. Banklarda 50 milyon manatdır. Gözləyirdim ki, bu biabırçı fərq aradan qaldırılacaq. Axı əslində Mərkəzi Bankın kapitalı kommersiya banklarının kapitalından yüksək olmalıdır. Lakin dövlət Mərkəzi Banka əlavə kapital vermədi. Bununla belə, indiyədək Mərkəzi Bankın kapitalı əhəmiyyətli deyildi. Çünki kapital ehtiyatları kapitalından yüksək idi: tədavülə buraxdığı nağd milli valyutanın 15 faizi miqdarında. Məsələn, 2014-cü ilin nəticələrinə görə ehtiyatlar 210 milyon manata yaxındır. Yəni nizamnamə kapitalından 21 dəfə çox. Amma edilən dəyişikdən sonra ehtiyatın məbləği də 10 milyon manat olacaq. Yəni hal-hazırda Mərkəzi Bankın əlindən 200 milyon manat alınır. Yəni bundan sonra Mərkəzi Bankın sərəncamında cəmi 20 milyon manat qalacaq”.

13-cü maddə üzrə dəyişiklikdən danışan Ə.Həsənov deyib ki, Mərkəzi Bankın sərəncamında eyni zamanda valyuta ehtiyatları da var: “Həmin ehtiyatlar da son dövrdə sürətlə ”əriyir". İndiyədək bunun nəticəsində Mərkəzi Banka dəyən zərər kapital ehtiyatları hesabına ödənilirdi və bu zaman kapital ehtiyatları daha da artırdı. Edilən dəyişikliyə əsasən isə daha belə olmayacaq: zərər bütövlükdə kapital ehtiyatlarından çıxılacaq, yəni ehtiyatlar daha artmayacaq. Nəzərə alsaq ki, kapital ehtiyatları əvvəlki kimi 210 milyon deyil, cəmi 10 milyon olacaq, Mərkəzi Bankın necə acınacaqlı vəziyyətdə olması bariz görünür".

14-cü maddə üzrə dəyişikliyə gəlincə isə, Ə.Həsənov deyib ki, Mərkəzi Bank risk qarşısındadır: “Mərkəzi Bankın kapital ehtiyatları kəskin şəkildə azaldılacaq. Ehtiyat zərəri ödəmək üçündür. Ehtiyat azdırsa, deməli, zərərin ödənilməsi kapitalı tam ”yeyə" bilər. Buna görə də indiyə qədər qayda belə idi ki, Mərkəzi Bankın kapital çatışmazlığını dövlət ödəməli idi. Gözləmək olardı ki, bu qayda olduğu kimi qalacaq. Çünki Mərkəzi Bankın kapital ehtiyatı onsuz da azaldılır. Lakin tam əksi olacaq. Dövlət kapital kəsirini pulla deyil, qiymətli kağızları ilə ödəyəcək, özü də dərhal yox, bir ildən sonra. Bu isə Mərkəzi Bankın özünün ağır vəziyyətə düşə bilməsi riskini artırır. Görünən odur ki, dövlətə əlavə pul vəsaiti lazımdır və bu pulu Mərkəzi Bankdan götürmək qərarındadır. Niyə Mərkəzi Bankdan? Çünki əvvəla həmin pullar Mərkəzi Bankın rəhbərliyinin səmərəsiz idarəçiliyindədir. Digər tərəfdən isə Mərkəzi Bankın əhəmiyyəti xeyli azalıb. Mərkəzi Bank nədir?

Mərkəzi Bank ilk növbədə manatın emitentidir. Lakin hazırda güclü dollarlaşma prosesi gedir. Manatın əhəmiyyəti azalır. Paralel Mərkəzi Bank da mövqelərini itirir. Digər tərəfdən, Mərkəzi Bank nəzarət orqanıdır. Lakin son zamanlar bankların qarşısında dili çox qısadır və nəzarət edə bilmir. Banklar özbaşına qalıblar. Deməli, Mərkəzi Bank burada da zəifləyib. Buna görə Mərkəzi Bankla hesablaşmağa, sərəncamında artıq pul saxlamağa lüzum yoxdur".

❑ RÖYA

# Vergi borcu olan şirkətlər istintaqa cəlb edilə bilər

**Vergilər Nazirliyi vergi borcunu ödəməyən vergi ödəyiciləri barədə məlumat yayıb. Açıqlanan növbəti “qara siyahı”da xeyli fiziki və hüquqi şəxsin adı var. Siyahıda Bakının nəqliyyat sektoruna nəzarət edən “Transqeyt” MMC-nin adı da var. Qeyd edək ki, bu şirkət nəqliyyat naziri Ziya Məmmədovun oğlu, iş adamı Anar Məmmədova məxsusdur.**

### Oliqarxlar borclarını ödəmək istəmir, Vergilər Nazirliyi şirkətlərin cinayət məsuliyyətinə cəlb ediləcəyinin anonsunu verir, ekspertlər də problemin ciddiliyini vurğulayır...




Vergilər Nazirliyi məlum siyahı ilə bağlı “Yeni Müsavat”ın sorğusunu cavablandırıb. Sorğuda bildirilir ki, nazirlik vergi borclarını geri almaq üçün də tədbirlər görür: “Vergi borclarının alınması mexanizmləri ilə bağlı sorğunuzla əlaqədar bildiririk ki, borcların geri alınması üçün vergi orqanları tərəfindən Vergi Məcəlləsi və digər qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərdən istifadə olunur. Borclu vergi ödəyicisinə hesablanmış vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsi barədə bildiriş göndərilir. Vergi borcları bildirişdə göstərilən müddətdə ödənilmədikdə vergi orqanları tərəfindən vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcların vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alınması üçün kredit və ya bank əməliyyatları aparan şəxsə icra, ödəniş sənədi olan sərəncamlar verilir. Vergi ödəyicisi vergi borcunu 30 gün müddətində ödəməzsə, onun əmlakı siyahıya alınır. Cinayət Məcəlləsinin 303.1-ci maddəsinə əsasən siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakın etibar olunmuş şəxs tərəfindən israf edilməsi, özgəninkiləşdirilməsi, gizlədilməsi, yaxud dəyişdirilməsinə görə həmin şəxslər cinayət məsuliyyəti daşıyırlar. Borclu vergi ödəyicisinin avtonəqliyyat vasitəsi olduqda, borc məbləğinin həmin avtonəqliyyat vasitələrinə yönəldilməsi məqsədilə aidiyyəti məhkəmələrə müraciət edilir. Məhkəmə qərarı ilə avtonəqliyyat vasitələrinin üzərinə borc ödəniləndək həbs qoyulur və onlar cərimə meydançalarında yerləşdirilir. Borclu vergi ödəyicisinin vergi borclarının ödənilməsinin təmini üsulu kimi siyahıya alınmalı əmlakı olmadıqda və ya kifayət qədər əmlakı olmadıqda, borclu vergi ödəyicilərinin digər əmlaklarının müəyyən edilməsi üçün həmin şəxslərin məhdud məsuliyyətli cəmiyyətdə, ortaqlıqda və ya kooperativdə təsisçi olub-olmamaları araşdırılır. Təsisçi olduqları təqdirdə, borc məbləğinin onun həmin hüquqi şəxsin nizamnamə kapitalındakı payına uyğun hissəsinə yönəldilməsi məqsədilə məhkəməyə müraciət edilir. Borclu fiziki şəxs hər hansı bir yerdə muzdlu işçi kimi çalışdıqda, borc məbləğinin onun muzdlu işlə əlaqədar gəlirlərinə yönəldilməsi məqsədilə aidiyyəti məhkəmələrə də müraciətlər edilə bilər. Xarici ölkələrə gedib-gələn borclu vergi ödəyicilərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması məqsədilə qanunda nəzərdə tutulmuş tədbirlər görülür. Borc məbləğinin tələbin icraya yönəldilməsi qaydasında tutulması məqsədilə icra məmurlarına müraciətlər edilir. Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən, xeyli miqdarda, iki min manatdan əlli min manatadək olan məbləğ və ya külli miqdarda, əlli min manatdan yuxarı olan məbləğdə vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma cinayət əməli hesab edilir. Cinayət tərkibi yaradan vergi borcu materialları ibtidai istintaq qaydasında araşdırılması məqsədilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilir və istintaqın nəticələrindən asılı olaraq, borclu vergi ödəyicisi cinayət məsuliyyətinə cəlb edilə bilər”.

Nazirlikdən bildirilir ki, Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən, vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur: “Vergilər Nazirliyi tərəfindən müvafiq xəbərdarlıqdan sonra da, imkanı olmasına baxmayaraq, dövlət büdcəsinə olan vergi borcunu ödəməkdən yayınmağa cəhd göstərən borclu vergi ödəyicilərinin adları ”Vergilər" qəzetində və Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilir. Həmin vergi ödəyicilərindən borcların alınması məqsədilə yuxarıda sadalanan tədbirlərdən istifadə olunur. Borclu vergi ödəyicisinin adı bu siyahıya bir dəfə daxil edilir. Belə ki, 02.07.2014-cü il tarixdən etibarən “Vergilər” qəzetinin hər buraxılışında dövlət büdcəsinə olan borclarını ödəmək imkanı olsa da, bundan yayınmağa çalışan borclu vergi ödəyicilərinin siyahısı dərc olunur və artan yekunla Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilir. Vergi borcunu ödəyən vergi ödəyicilərinin adları dərhal həmin siyahıdan çıxarılır".

Qeyd edək ki, ekspertlər inzibati addımların mövcud problemləri həll etməyəcəyini vurğulayırlar. Bildirilir ki, əsasən də oliqarxlara məxsus böyük şirkətlər büdcə qarşısında öhdəliklərini yerinə yetirmirlər. Ekspertlər də qeyd edirlər ki, hazırda dövlət büdcəsinin vergi yığımlarında müəyyən problemlər yaşanır. Onlar vergi daxilolmalarında yaranan problemləri ölkədə nizamlı vergi yığımının olmaması ilə izah edirlər. Bu gün dövlətin iri vergi ödəyicilərinin, böyük şirkətlərin büdcəyə külli miqdarda borcları var. Və həmin borclar ilbeil daha da artır. Ancaq bu qurumlar büdcədən həm dotasiya, həm də investisiya xərcləri əldə etməklə, dövlət vəsaitlərinin səmərəsiz və qeyri-şəffaf istifadəsi ilə məşğuldurlar. Vergilər Nazirliyi mütəmadi olaraq vergi borcu olan şirkətlərin adlarını açıqlayır.

Ekspertlər problemin ciddiliyini vurğulamaqla yanaşı, çıxış yolu da təklif edirlər. İqtisadçı Natiq Cəfərlinin sözlərinə görə, bu, ağrılı və illərlə davam edən bir problemdir: “Bir neçə ildən bir Azərbaycan hökuməti bəzi iri vergi ödəyicilərinin vergi borclarını azaltmaqla, silməklə bu problemi ildən ilə keçirə-keçirə indiki vəziyyətin yaranmasına səbəb olub. İndi həmin dövlət müəssisələrinin və ya dövlətin mülkiyyətində olan açıq və qapalı səhmdar cəmiyyətlərin idarəetməsinin effektivliyini artırıb, onların gəlirlə işləməsini təmin etmədən vergi borclarının ödənilməsindən danışmaq yersizdir. Çünki ən azından, sadə məntiqlə bunlar gəlirlə işləməli, pul qazanmalıdırlar ki, vergi borclarını da vaxtlı-vaxtında ödəsinlər. Vergi borclarından əlavə bu müəssisələrin bir-birlərinə də ciddi borcları var. Kommunal xərclərlə bağlı da ciddi borclar mövcuddur. Bunlar illərlə yığılmış borclardır. Köklü islahatlar aparmaq lazımdır. İslahatların da qismən, ya tamamilə özəlləşmə, ya da uzunmüddətli icarəyə verilmə kimi yolları var. Bu olmasa, mövcud problemlər uzun müddətdən bəri necə yığılıbsa, bundan sonra da elə qalacaq. Həmin müəssisələrin effektiv idarə olunması sual altına düşəcək, gəlirlə işləməyəcək. Gəlirlə işləmədiyi üçün də vergi borclarını ödəyə bilməyəcək”.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 112 (6140) 25 may 2015

# "Dəniz də qalxmalıdır, prezident də müdaxilə etməlidir"

## Fazil Mustafa: "Artıq Avropa İttifaqı bizə Rüstəm bəyin Məşədi İbada baxdığı kimi baxır; Gülnazı göstərib, Sənəmi sırımaq istəyir..."

**"Baxış bucağı"**

**Binəqədi rayonunda böyük tələfatla nəticələnən dəhşətli yanğın hadisəsindən hələ çox danışılacaq - ən azı bu hadisəyə görə cavabdeh olan məsul şəxslər öz layiqli cəzalarını alana qədər. Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının başqanı Fazil Mustafa ilə budəfəki söhbətimiz də gündəmin aktual mövzusuna həsr etdik. Müsahibədə Azərbaycan uğrunda gedən Rusiya-Avropa mübarizəsinə, sonuncu Riqa sammitinə də həmsöhbətimizin orijinal fikirlərini aldıq.**

***- Fazil bəy, Binəqədidəki faciə ilə əlaqədar - heç olmasa prezidentin dediklərindən sonra - niyə bircə məmur belə özündə cəsarət tapıb postunu təhvil vermədi. Bakı meri "inanın, bilsəm həlak olanlardan biri həyata qayıda bilər, onun əvəzində ölə bilərəm" deyir, ancaq vəzifəsindən belə getmək barədə düşünmür. Hətta onu istefaya çağıranlara da adekvat olmayan reaksiya verdi. Binəqədinin icra başçısı da həmçinin... İstefa vermək doğrudanmı ölümdən də qorxuludur?***

- İstefa mədəniyyəti bir çox hallarda mənəvi meyarlara tabedir. İnsan daşıdığı vəzifəni icra etməyə özünü layiq bilməyəndə, bu istefa çağırışı insanın içindən baş qaldırır. İndi düşünün, hansısa vicdanı yerində olan məmur, öz evinə, villasına rəva görmədiyi yanğına davamsız üzlüyü yüzlərlə insanın yaşadığı binanın fasadına vurmazdı. Ona görə də könüllü kimsədən istefa gözləməyin. Azərbaycanda axirət hesabatı insanların düşüncəsində çox zəif yer aldığına görə, əksəriyyət dünyanı və yığdığı sərvətləri axıra qədər özü ilə daşıyacağına inanmaqdadır. Bəlkə də həqiqətən bir çox insanlar üçün istefa ölümdən çox-çox qorxuludur.

***- Sizcə, baş verənlərlə bağlı cəzalandırmalar MİS rəisi, keçmiş müavin çərçivəsindən o tərəfə keçəcəkmi, daha yüksək səviyyələri əhatə edəcəkmi? Yoxsa bunun üçün üçüncü bina faciəsini gözləmək lazım gələcək?***

- Güman etmirəm ki, həbs dalğası genişlənsin. Çünki burada bir-biri ilə əlaqəli elə qaranlıq münasibətlər var ki, məsələnin dərininə gedildikcə, bütün sektorlarda olan subyektlərin maraqlarına toxunulmuş olacaq, bu isə hüquq çərçivəsində obyektivliyin təmin olunmasına maneə yaradan əsas amillərdir. Hər halda, ölkə prezidentinin siyasi iradəsinin açıq şəkildə ortaya qoyulması müsbət haldır. Ümid edək ki, bu iradəyə qarşı gizli oyunlar oynanılmayacaq.

***- Necə bilirsiniz, 19 may fəlakətindən külli halında dərs götürə bildikmi? Yaxud da ümumiyyətlə, bizim aldığımız dərs nə oldu?***

- Biz Qarabağ savaşından hansısa dərsi götürmüşük ki, bir bina faciəsindən də götürək? Müharibə aparan ölkədə binaların zirzəmilərində sığınacaq yeri saxlamamışıqsa, o boyda Xəzəri hasarlayıb vətəndaşdan gizlədilməsinə göz yumuruqsa, hətta Əhmədlidə bina yanğınından sonra belə, insanları gözləyən fəlakət barədə tədbir görmürüksə, dəyişən bir şeylərin olacağını zənn etmirəm. Əsas dərs, məncə, bu olmalıdır ki, quruculuq da, inkişaf da, islahat da, bəzək-düzək də konkret insanın maraqlarını düşünərək həyata keçirilməlidir.

***- Oliqarxların həbsi, Riqa sammiti, Avropa Yay Oyunları və...16 mərtəbəli binanın yanması. Sizcə, bu hadisə sırf təsadüfdür, ya təxribat izləri də olmamış deyil?***

- Mən bu baş verən və üst-üstə düşən hadisələrin bir ipə düzülməsini doğru hesab etmirəm. Dünyada hər gün hansısa bir sürprizlər ola bilər və biz də bu dünyanın içində yaşadığımıza görə, dolayısıyla bizimlə də əlaqələndirilməsi hər zaman mümkündür. Ancaq yanğın hadisəsinin təxribat olması ehtimalına üstünlük verirəm. Ancaq bu təxribatın əvvəlkilərdən başqa bir fərqi var. Binaların üzlüyünü bu materialdan bəzəməyi planlaşdıranlar əslində göz görə-görə bu təxribatı törədənlərə "yaşıl işıq" yandırıblar. Mən adi bir günün başlanğıcında kiminsə məsuliyyətsizliyindən bir yanğının baş verəcəyini təsəvvürə gətirə bilmirəm. Hər halda hüquq-mühafizə orqanları dəqiq araşdırma aparırlar, yəqin ki, bütün ehtimallara, şübhələrə aydınlıq gətiriləcək.

***- Fazil bəy, Riqa sammitində Azərbaycanın uduşu və ya itkiləri nə oldu? Bunun ardınca gözləntiləriniz nədir? Hesab etmək olarmı ki, Bakı Rusiyanı qıcıqlandırmamaq üçün öncədən Avropa ilə anlaşmışdı?***

- Obrazlı desək, artıq Avropa İttifaqı bizə Rüstəm bəyin Məşədi İbada baxdığı kimi baxır. Gülnazı göstərib, Sənəmi sırımaq istəyir. Gülnaz Birliyə üzvlükdür, Sənəm Şərq tərəfdaşlığı. Gülnazdan söhbət gedə bilməz, Sənəm də təzədən doğub-törəyən deyil. Rusiya da Qoçu Əsgər kimi boşuna atdığı patronlarla bizi qorxu altında saxlayıb, bir şeylər qoparmaq istəyir. Məncə, Avropa İttifaqının Azərbaycanla candərdi münasibətləri yekun mərhələyə yaxınlaşır. Artıq bu qurumun Azərbaycana qarşı aşağılayıcı mövqeyi müqabilində Azərbaycan nəticəsiz siyasət xatirinə dövlətin taleyini riskə soxa bilməz. Biz indiki mərhələdə Avropa İttifaqına yaxınlaşmaq üçün deyil, Avropa demokratiyasının dəyərlərinə yaxınlaşmaq üçün çalışmalıyıq. Riqa sammitinə getməmək barədə ölkə prezidentinin qərarını doğru hesab edirəm. Fikrimcə, burada ən vacib arqumentlərdən biri kimi saxta erməni soyqırımı ilə bağlı bu qurumun qəbul etdiyi qərarını da elan etmək olardı. Çünki Krım məsələsində Avropa İttifaqı ilə tamamilə əks mövqedə duran Ermənistanın hərəkətlərinin pislənməməsi və hətta onların xeyrinə saxta soyqırımın tanınması ilə bağlı qərarın çıxarılması, bu qurumun fiaskosu idi və artıq bu mərhələdən sonra artıq Avropa İttifaqı ilə bizim çox az ortaq uzlaşma nöqtəmiz qalıb.

***- Hazırda oliqarxların səsi ya istintaqdan gəlir, ya da xaricdən. Belə bir situasiyanı necə şərh etmək olar? Ümumən qeyri-neft sektoruna bu və ya digər şəkildə aid olan şəxslərin konkret faktlar əsasında çıxdaş edilməsi hansı perspektiv vəd edir? Bu, ölkədə sahibkarlıq fəaliyyətnin gələcəyinə necə təsir edə bilər? Oliqarxiyanın faktiki olaraq tifaqının dağıdılması ölkədəki siyasi proseslərə, xüsusilə də qarşıdakı parlament seçkilərinin nəticələrinə hansı təsirləri göstərə bilər?***



**"Yanğın hadisəsinin təxribat olması ehtimalına üstünlük verirəm"**

- Oliqarxların həbsi, hələ inhisarçılığın ortadan qalxması mənasına gəlmir. Bir çox hallarda doymuş məhlulu doymamış məhlul əvəz edir və yenisi doyana qədər vətəndaşlar daha acınacaqlı şərtlərdə hüquqlarını qorumağa çalışırlar. Bütün hallarda sahibkarların məhkəmə qaydasında törətdiyi qanunazidd əməllər sübut edilməlidir, əks halda bu, ölkədə daha çox hüquqdanqaçma vərdişini gücləndirəcək. Onsuz da hüququn tətbiqi, qanunların icrası sahəsində geninə-boluna problemlər var, hətta dürüst sahibkarlar da bir çox hallarda ağır vergi şərtləri altında əzilərək, iqtisadi sferadan çəkilərək lümpenləşirlər. Bəlkə bir-iki zəruri sahələrdə inhisarçılığa göz yummaq olar, ancaq əksər sahələrdə bundan imtina olunmalı, yeni iqtisadi modelə keçilməlidir. Ancaq geniş imkanlı bəzi kredit sahibkarlarının həbsinin parlament seçkilərinə hansısa təsiri olacağını düşünmürəm.

***- Hesab etmək olarmı ki, yanğın hadisəsi kimi faciələrin baş verməsi həm də parlamentin məsuliyyətidir? Bu kimi problemlərlə bağlı iclaslarda dəfələrlə çıxışlar olsa da, eşidilməz qalıb. Odur ki, qanunların icrasına nəzarət məsələsi yenidən gündəmə gələ, parlamentin səlahiyyətlərinə baxıla bilərmi? Bəlkə konkret məsələlərlə bağlı təşəbbüs və ya çıxışlara müvafiq qurumların dərhal reaksiya verməsini zəruri edən əlavə və dəyişikliklərə ehtiyac var?***

- Əlbəttə, burada qanunvericilik bazasının formalaşmasında səmərəli müzakirə aparmaq qabiliyyətini itirmiş parlamentin də məsuliyyəti var. Biz faktiki olaraq qanunların icrasına nəzarət etmək imkanımızı əldən vermişik. Hətta büdcə və hesabat məsələlərində parlament üzvləri danışmaq, hansısa nöqsanları söyləmək istəyən deputatlara qarşı elə aqressiv davranırlar ki, elə bilirsən ki, hökumətin məsuliyyəti bunların çiynindədir. Halbuki, parlament yaxşı mənada hökumətin nöqsanlarını üzə çıxararaq problemlərin həllinə köməklik göstərməlidir. Büdcə vəsaitlərin xərclənməsinin icrasına Milli Məclis Hesablama Palatası vasitəsi ilə baxır. Hesablama Palatası ilə bizim münasibətimiz ancaq ildə iki-üç dəfə verdiyi rəy sənədi əsasında olur. Burada da müstəqil ekspertlərin və müxalif fikirli insanların olmaması hansısa məsələnin üzərinə prinsipial gedilməsinə imkan vermir. Əslində parlamentdə səsləndirilən fikirlər dərhal rəsmi sorğu kimi qəbul olunmalıdır. Ancaq yanlış idarəçilik anlayışı zəif parlament modelini daha uyğun gördüyündən, burada sadəcə bizlər vicdanımızı sakitləşdirmək naminə problemlərdən danışırıq.

***- Yay gəlir və sizin ən çox qaldırdığınız problem - dənizin hasarlanması olduğu kimi qalır. Necə bilirsiniz, bu problemin həlli üçün dəniz səviyyəsinin qalxmasınımı gözləməliyik, yoxsa prezidentin müdaxiləsini?***

- Bu problem də bilavasitə məmur özbaşınalığı ilə əlaqəli olduğundan, əslində hər iki faktın baş verməsi zərurəti var. Dəniz də qalxmalıdır, prezident də müdaxilə etməlidir. Prezidentin müdaxiləsinə gizli şəkildə müqavimət göstərə bilərlər, ancaq əlahəzrət təbiətin qarşısında ən cızığından çıxmış qudurğan məmurun belə dirəniş imkanı yoxdur.

❑ **Elşad PAŞASOY**



# Alabala möcüzələr ölkəsində

Zamin HACI
zaminhaci@gmail.com

**"Maraqlıdır, nazirliklərdə bu böcəyəbənzər insan tipi necə yetişdirilmişdi? Erkən yaşda kökəlmiş bütün kişilər özlərinin əyri, yerə yapışan ayaqları, əsəbi əl-qol hərəkətləri, piy basmış sifətləri və xırda, ifadəsiz gözləri ilə sanki biri-birinin eyni idilər. Partiyanın hakimiyyəti altında bu insan tipinin daha geniş yayıldığını görməmək mümkün deyildi".**

*(Corc Oruell, "1984" romanından)*

**Baş nazirin müavini, uzun illərdir dəyişilmədiyindən öz kreslosunda artıq iy verməyə başlayan Abid Şərifovdan yanan binanın təmirini hansı şirkətə tapşıracaqlarını soruşdular. Normal dövlətdə belə işlər tenderlə, müsabiqə ilə, cəmiyyətə açıq keçirilir. Amma avtoritar hakimiyyətlərdə oğurluq və korrupsiya yolu ilə, tapşırıqla, kiminsə ailə şirkəti vasitəsiylə aparılır. Ona görə də axırda bina yananda məlum olur ortada heç bir müqavilə yoxdur. Bu baxımdan, Şərifovun azacıq məsuliyyət hissi olsa "Hələlik bunu bilmirik, yəqin tender, müsabiqə olar, iş bacaran bir şirkət seçilər" deməliydi. Amma Şərifov tipik yapist olduğunu göstərdi və telekanalizasiya zəhmətkeşinə "Sənə nə dəxli var? Alabalaya verəcəyik" söylədi. Telekanalizasiya zəhmətkeşi də mikrofonu bu sarsaqlamanın müəllifinin təpəsinə geydirmək yerinə pis-pis irişdi, dağılışıb getdilər.**

Prinsipcə, Abid müəllim doğru deyir: binaların gələcək təmiri və üzlənməsi elə Alabala müəllimə tapşırılacaq. Siz onu çox yaxşı tanıyırsınız. Alabala müəllim Penoplast prospektində (camaat artıq qara yumorla Azadlıq prospektinə bu cür ad qoyubdur) yanan binanı vaxtilə üzləyən Ağabala müəllimin qardaşıdır. Bir qardaşları da var: Alabula müəllim. Alabula müəllim Beynəlxalq Bankın kredit şöbəsinin müdiri idi, pulları basıb yeyibdir. Bunların bir bacıları da var: Alabacı müəllimə. Alabacı müəllimə Abid Şərifovla yaxın münasibətləri olan məktəb direktorudur, bütün seçkilərdə yapistlər üçün sinəsində, yeddi qatlı milli tumanının altında bülleten və protokol daşımaqla dünya şöhrəti qazanmışdır. Hamısı bir yerdə isə ailə korporasiyası yaradıblar, beynəlxalq aləmdə "Ala-holdinq" adıyla tanınan bu transmilli iqtisadi qurum Virgin adalarından Panamaya, Floridadan Fransa Lacivərd Sahilinə, Davos forumundan Dubay qumluqlarına qədər hər yerdə ala itdən məşhurdur.

Təşkilatın adı niyə "Ala"dır, bu haqda bir neçə versiya vardır. Bir söhbətə görə bu, qədim türk tayfaları olan alagözlərin adından irəli gəlir. (Holdinqin qeyri-rəsmi himni "Alagöz" mahnısı imiş). Başqa versiyaya görə, haçansa massaget və sak tayfaları bu tayfadan neft gəlirləri istəyiblər, bunlar isə üç barmağın milli mentalitetimizə aid məşhur konfiqurasiyasını göstərib "Ala" deyiblər. Versiyalar çoxdur, biri bunu hətta fransız mənşəli sayır: "A lya" demək imiş. Misal üçün, ilkin dönəmlərdə guya şirkətin adı "A lya bala" imiş. Fransızcadan dilimizə çevirsən, yəni, Bala kimi.

Bilirsinizmi, bunlar hamısı savadsızlıqdan irəli gəlir. Əgər orta məktəbdə yaxşı oxusaydıq Abid müəllimin nə demək istədiyini, hansı milli kodları açdığını anlayardıq. Elə savadsızlıq üzündən millət neçə vaxtdır girinc qalıb, heç bilmirlər onları yandırıb öldürən maddənin adı nədir. Biri deyir penoplastdır, o biri deyir, səsini kəs, sənin qandığın qrafa yoxdur, yanan poliuretan idi. Bəziləri isə hətta deyir plastilindir. Kim bilir, bəlkə də postmodernizmdir.

Söhbət ondadır ki, hal-hazırda Azərbaycan təhsil sistemində (orta məktəbdən ali məktəbə qədər) ən bərbad sahələrdən biri kimya sahəsidir. O biri fənnləri yenə pis-yaxşı öyrədənlər var, kimya tam yiyəsiz qalıbdır. Fikrimcə, bunun iki ciddi səbəbi vardır.

Birincisi, orta məktəblərdə kimya dərslərini əyani təcrübələrlə aparmaq üçün demək olar heç bir laboratoriya-filan qalmamışdır. Kimya tədrisinin başqa fənnlərdən vacib fərqi isə təcrübələrdir, bunlar olmasa şagirdə maddələrin dəyişilməsini, reaksiyaların nəticələrini izah eləmək çətin və həm də mənasızdır. Ona görə indi hərə bir tində əlinə penoplast qırığı alıb "yanır, yanmır" çobanyastığı falına baxmaqla məşğuldur. Belə təcrübələr məktəblərdə aparılmalı idi.

İkincisi, kimyanın canı elə bayaq yazdığım "dəyişmə" sözündədir. Kimya maddələrin tərkibini, onların bir-birinə təsirlə dəyişilməsi özəlliklərini öyrənir. Bax, burda yekə bir "Stop" işarəsi gəlir. Çünki yapistlər dəyişikliyi sevməyən qruplaşmadır. Onlar nə siyasi, nə kimyəvi dəyişikliyi sevməzlər. Cəmiyyəti də buna alışdırıblar. Guya bu cür bir çuxurda (kolbada, kresloda, kabinetdə) qalıb iylənmək sabitlik imiş.

Amma belə deyil. Hətta mal peyinini də uzun müddət üst-üstə yığıb saxlasan həmin peyin çürümək və öz-özünə alışmaq xüsusiyyətinə malikdir. İndi beyinsiz peyinlərin alabula leksikonuna səbəb olan həmin çürümə prosesləridir.

# Bölgənin açar ölkəsi uğrunda rəqabət sərtləşir



# Putinin Azərbaycanla bağlı sonuncu planı

## Rusiyanın öz iqtisadiyyatını xilas eləmək və dirçəltmək üçün neft ölkələri ilə bağlı 3 ssenarisinin olduğu deyilir; Bakı ilə Moskva arasında "mehriban düşmənçilik" dövrü bitir?..

**Azərbaycan uğrunda Qərb-Rusiya geosiyasi mübarizəsi hələ ki, öz məntiqi sonluğuna çatmayıb. Bunu prezident İlham Əliyevin Avropa Birliyinin Riqadakı tərəfdaşlıq sammitinə qatılmaqdan qəfil imtinası, bundan cəmi bir gün sonra isə Rusiya prezidenti Vladimir Putinin I Avropa Yay Oyunlarının açılış mərasiminə qatılmaqla bağlı qərar verməsi bir daha və özünəməxsus şəkildə təsdiqlədi.**

Regionun açar ölkəsi kimi Azərbaycan uğurunda savaşın sərtliyi, rəqabətin özəlliyi məntiqli və anlaşılandır: Bakı Putinin Avrasiya layihələrinə qoşulmağa razılıq verərsə, bölgə bütövlükdə Rusiyanın, Avropa Birliyinə qoşularsa - Qərbin çətiri altına düşəcək. Azərbaycan isə Rusiyadan ötrü həm də energetik rəqibdir və bu rəqib, daha doğrusu, "mehriban düşmən"in davranışından yaxın perspektivdə şimal qonşumuzun nə dərəcədə beynəlxalq sanksiyalardan əziyyət çəkəcəyinə əhəmiyyətli təsir edə bilər.

Söhbət öncəliklə Avropanın Rusiyadan qaz asılılığının azalmasından, TAP, TANAP, "Türk axını" layihələrinin taleyindən və xam neftin dünya bazarındakı qiymətindən gedir. Sirr deyil ki, bu qiymətin aşağı həddə qalmasında neft ölkələrinin neft siyasəti də az rol oynamır.

***

Bu arada nüfuzlu "Foreign Policy" nəşri Rusiyanın öz iqtisadi dirçəlişini təmin etmək, neftin zəruri həddədək bahalaşmasına nail olmaq üçün bəzi ciddi addımlar ata biləcəyini proqnoz edib. Nəşr bu versiyalardan biri kimi Moskvanın Azərbaycanda stabilliyi pozması fikrini də irəli sürüb.

ABŞ nəşri Ukraynadan sonra Rusiya iqtisadiyyatının uçuruma yuvarlandığını qeyd edərək yazır: "Qərb Rusiyanı küncə sıxmaq üçün neftin qiymətini aşağı saldı. Hansı ki, bu ölkənin iqtisadiyyatının onurğa sütununu məhz neft gəlirləri təşkil edir. Hazırda Rusiyanın xarici borcu 15 faiz olmaqla o qədər də böyük deyil. Lakin ölkədə ümumi daxili məhsul azalıb, ixrac və idxal problemləri yaşanır. Belə olduğu halda Rusiyanın geri çəkiləcəyini düşünmək sadəlövhlük olardı".

Nəşrin iddiasına görə, Kremlin "beyin mərkəzləri" ölkə iqtisadiyyatının uçurumdan çıxarılmasını neft qiymətlərinin qalxmasında gördüklərindən, neftin dünya bazarında bahalaşmasına nail olmaq üçün bir neçə ssenari hazırlayıb. Bunlar aşağıdakılardır:

1. İranla "Altılıq" ölkələri arasında danışıqları sabotaj etmək. Məlumdur ki, Tehrana qarşı sanksiyalar götürüldükdən sonra İran neft bazarına qayıdacaq ki, bu, "qara qızılı"ın qiymətini daha da aşağı salacaq. "İranla müharibə başlasa, bu, hazırkı məqamda Rusiyanın xeyrinədir. Bu, az ehtimal olunan məsələdir, lakin neftin qiymətinə təsir edəcək əsas amillərdəndir" - yazır nəşr.

2. Neft istehsalı olan kiçik ölkələrdə stabilliyi pozmaq. Bu yolla da qiymətlərə təsir etmək mümkündür. Bu sıraya Venesuela, İraq, Nigeriya, Əlcəzair, Azərbaycan, Qazaxıstan və Meksika daxildir. "Bu, sonuncu versiyadır, lakin həmişə gündəmdə qalır. Rusiya bu ölkələrdə stabilliyi pozmaq istəyə bilər" - vurğulayır müəllif və əlavə edir: "Digər ssenari Bakı-Subsa boru kəməri və Bakı-Ceyhan kəmərinin hədəfə alınmasıdır. Rusiya Gürcüstana müdaxilə etmək təcrübəsinə sahibdir. Yəni Moskva Gürcüstana girərək bu kəmərlərin axınını dayandıra və qiymətləri qaldıra bilər".

3. Hörmüz boğazının bağlanması, yaxud İŞİD-i Səudiyyə Ərəbistanına qarşı qaldırmaq. "Variantlar arasında əsas neft ixracatçılarından olan Səudiyyə Ərəbistanında vəziyyəti nəzarətdən çıxarmaq və Hörmüz boğazını qısa müddətə olsa da bağlamaq ssenarisi də var. Bu, çətin görünsə də, Moskva müxtəlif yollarla bu niyyətə düşə bilər. Misal üçün, Yəməndəki şiə azlığının narazılığından istifadə edər. Çünki Rusiya separatizmi qızışdırmaq ənənələrinə malikdir. O, Dağlıq Qarabağda, Cənubi Osetiya və Abxaziyada, eləcə də Ukraynada üsyançıları silahlandırıb" - yekunlaşdırır "Foreign Policy".

***

Sadalananlar, təbii ki, jurnalın versiyalarıdır. Ancaq o da var ki, Putin hələ ki, konkret olaraq Azərbaycanla bağlı son planını işə salmayıb. Hələ ki, Moskva Azərbaycanı ələ alması və öz orbitindən uzağa getməməsi üçün müvafiq addımlar atır, bəzi reveranslar edir. Bakı ilə silah satışı sahəsində əlaqələrin inkişaf etdirilməsi (bu silahlar əslində Azərbaycan ordusunu Rusiya hərbi zavodlarından, Rusiyadan asılı edir), Putinin Avropa Oyunlarının açılışında iştirak üçün Bakıya səfər etmək qərarı verməsi Kremlin ölkəmizə ayırdığı ciddi "diqqət və qayğının" əyani göstəricisidir.

Üstəlik, bu günlərdə məlum oldu ki, Azərbaycanla Rusiya sentyabr ayında Xəzər dənizində ilk dəfə olaraq birgə hərbi təlimlər keçirəcək. Rəsmi məlumatlara görə, təlimlər zamanı hərbçilər "dənizdə gəmiçiliyin və beynəlxalq dəniz fəaliyyətinin təhlükəsizliyini təmin edilməsi üçün" Xəzər donanmasının və Azərbaycanın gəmiləri arasında qarşılıqlı əlaqələri məşq edəcək, dəniz və hərbi hədəflərə birgə artilleriya atışları və digər ortaq manevrlər həyata keçiriləcək.

Aydındır ki, bu təlimlər Qərbə Xəzərdə "əzələ nümayiş" etdirmək üçün daha çox Rusiyaya gərəkdir. Bu, həm də o anlama gəlir ki, Kreml dənizdə "kənar" hərbi amillərin mövcudluğuna imkan vermək fikrində deyil. Demək, transxəzər neft-qaz kəmərlərinə nəzarət də Moskvanın əlində qala bilər.

Hər halda, Bakının qəti olaraq Qərb seçimi etməməsi üçün Kremlin strateji hədəfi kənardan belə görünür. Təəssürat həm də belədir ki, hələlik Rusiya Azərbaycanla bağlı ən son planını işə salmayıb. Bu planın mahiyyəti isə dəqiqliklə, yəqin ki, yalnız KQB zabiti Putinin özünə məlumdur.

***

İstənilən halda, Rusiya liderinin Bakıya qarşıdakı işgüzar səfəri, bu səfər çərçivəsində Azərbaycan və Türkiyə prezidentləri ilə gözlənilən görüşləri bir sıra aktual məsələlərlə ilgili "i"-lərin üzərinə nöqtələr qoya bilər. Belə görünür, "mehriban düşmənlər"in kövrək müttəfiqlik dövrünün bitməsinə bir şey qalmayıb. Bundan sonra hansı mərhələ gələcək: Azərbaycanla Rusiyanın əsl müttəfiqliyi, yoxsa...

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 112 (6140) 25 may 2015



# Rusiya Avropanın planlarını əngəllədi

## Elxan Şahinoğlu: “Riqadakı tədbiri ATƏT-in Lissabon sammitinə bənzədirəm”

**Ötən həftə Avropa İttifaqının “Şərq Tərəfdaşlığı” proqramına üzv ölkələrlə birgə keçirdiyi Riqa sammiti başa çatdı. Ancaq gözlənildiyi kimi, sammitdə elə də ciddi qərarlar qəbul olunmadı. Bir sıra müşahidəçilər bu məsələdə Rusiya amilini qeyd edir, ruslar isə sammiti, ümumiyyətlə, fiasko adlandırırlar. Bəs, Azərbaycan üçün bu sammit nə verdi? Bu və daha bir neçə sualı politoloq Elxan Şahinoğluna ünvanladıq.**

- “Şərq Tərəfdaşlığı” proqramı vaxtilə Polşa və İsveç tərəfindən irəli sürülmüş, Brüssel bu ideyanı bəyənmişdi. Proqramın məqsədi coğrafi baxımdan Avropa qitəsində yer alan keçmiş SSRİ respublikalarını Avropa İttifaqına inteqrasiya etdirmək idi. Ancaq başlanğıcda düşünülən ideya alınmadı. Çünki Rusiya bu prosesə seyrçi qalmadı, ərafındakı dövlətlərin Avropa İttifaqına inteqrasiyasına mane olmağa qərar verdi. Brüssel bu vəziyyəti görüb yeni təşəbbüs irəli sürdü - assosiativ saziş. Yəni “Şərq Tərəfdaşlığı” proqramına daxil olan ölkələr Avropa İttifaqı ilə fərdi əməkdaşlığı sürətləndirən assosiativ saziş imzalamalıydılar. Ancaq Kreml bu prosesi də əngəllədi.

**- Belə çıxır ki, Rusiya Avropa İttifaqının planlarını alt-üst etdi...**

- Bəli, Kreml birinci Ukraynanı hədəf seçdi. Ukraynanın keçmiş prezidenti Viktor Yanukoviç məhz Brüsselə assosiativ saziş imzalamadığına görə hakimiyyətini itirdi. Daha sonra isə Kreml Brüsselə assosiativ saziş imzalamaq istəyən Ukraynanı parçaladı, Krımı işğal etdi, bu ölkədə ikinci Qarabağ yaratdı. Kreml daha sonra Ermənistan prezidenti Serj Sərkisyanı hədəf seçdi. O da son ana qədər Avropa İttifaqı ilə assosiativ saziş ətrafında danışıqlar aparmasına baxmayaraq, bundan imtina etdi və Avrasiya İqtisadi Birliyinə üzv oldu. O ki qaldı Kremlin Bakıya assosiativ saziş ətrafında təzyiq etməsinə, mən belə düşünmürəm. Avropa İttifaqı ilə assosiativ saziş imzalamamaq rəsmi Bakının müstəqil seçimi idi. Məsələ burasındadır ki, bu saziş ölkə qanunlarının və idarəetmənin Avropa standartlarına yaxınlaşmasını, gömrüyün şəffaflaşmasını diktə edir. Bu amillər isə Azərbaycan hakimiyyəti içindəki oliqarx qüvvələrin maraqlarına cavab vermir. Həm də Azərbaycan Ümumdünya Ticarət Təşkilatının üzvü deyil. Bu təşkilata üzv olmadan Avropa İttifaqı ilə assosiativ saziş imzalamaq mümkün deyildi. Beləliklə, “Şərq Tərəfdaşlığı” proqramının 6 ölkəsindən 3-ü (Ermənistan, Belarus və Azərbaycan) Brüsselə assosiativ saziş imzalamadı. Bunun əsasında da Brüsselin istədiyi hədəfə çatmadığını düşünürəm.



**- Riqa sammitinin yekun bəyannaməsini necə qiymətləndirirsiniz?**

- Sammitin 30 maddəlik yekun bəyannaməsini bənd-bənd nəzərdən keçirdim. Diqqətimi nələr cəlb etdi? Birincisi, bir çox bənddə Azərbaycanı Ermənistan və Belarusla bir sırada qeyd ediblər. Bu isə o deməkdir ki, Avropa İttifaqı Azərbaycanla müxtəlif istiqamətlərdə inteqrasiyaya ümidli deyil. İkincisi, sənəddə bir tərəfdən ərazi bütövlüyü prinsipinə önəm verildiyi vurğulanır, ikinci bir tərəfdən isə münaqişələrin beynəlxalq hüquq normaları əsasında həlli ön plana çəkilir. Bu isə növbəti qeyri-müəyyənlikdir. Çünki Ermənistan xalqların öz müqəddəratını təyin etməsini də beynəlxalq hüquq norması çərçivəsində görür və beynəlxalq aləm buna etiraz etmir. Buna baxmayaraq, sammitin bəyannaməsində enerji əməkdaşlığı ilə bağlı bənddə Azərbaycanın önəmi vurğulanır, TAP və TANAP boru xətlərinin adı çəkilir. Bu bəyannamənin ən çox cümlələrlə ifadə olunan bəndidir. Ancaq bütövlükdə amorf bir bəyannamədir, bir müddət sonra bu sənədi xatırlayan olmayacaq.

**- Axı Azərbaycan Xarici İşlər Nazirliyi bəyan edib ki, Ermənistan prezidenti Riqa bəyannaməsinin ərazi bütövlüyü prinsipinə qol çəkib və deməli, İrəvan buna riayət etməlidir...**

- Azərbaycan XİN-in bu açıqlaması mənə ATƏT-in 1996-cı ildəki Lissabon sammitini xatırlatdı. Riqa sammitini ATƏT-in Lissabon sammitinə bənzədirəm. Azərbaycan rəsmiləri Riqada olduğu kimi Lissabonda da yekun bəyannaməyə qol çəkmək istəmirdilər. Çünki nə Lissabon, nə də Riqa sammitində Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli vacibliyi vurğulanmadı, qeyri-müəyyən cümlələr yer aldı. Yekun bəyannamənin qəbulu üçün o zaman da Azərbaycan prezidentinə minnətçi düşdülər, indi də. Hər iki sammitdə güzəştə getdik. Bakının etirazı nəticəsində Lissabon sammitinin yekun bəyannaməsinə ATƏT sədrinin 3 bəndlik bəyanaməsi əlavə olundu ki, Dağlıq Qarabağ münaqişəsi ərazi bütövlüyü prinsipi çərçivəsində həll olunmalıdır. Ancaq böyük dövlətlər, eləcə də ATƏT-in dəyişən sədrləri həmin bəyanatın icrasını təmin etmədilər. Lissabon sammitindən 19 il keçib. Bu müddətdə Dağlıq Qarabağ münaqişəsinin həllində müsbətə doğru nəsə dəyişdi ki, Riqa sammitinin yekun bəyannaməsi də Ermənistanı nəyə məcbur etsin? Sammitlərin yekun bəyannamələri ilə Dağlıq Qarabağ münaqişəsinin həll olunmayacağı bizə elə Lissabondan bəlli olmalı idi.

**- Necə düşünürsünüz, Azərbaycan “Şərq Tərəfdaşlığı” proqramında iştirakını davam etdirəcəkmi?**

- Rəsmi Bakı Brüsselə assosiativ saziş imzalamasa da, “Şərq Tərəfdaşlığı” proqramından qopmayacaq. Məsələ burasındadır ki, bu proqram işlək mexanizmə çevrilməyib. Ona görə qurumda olmaqla olmamaq arasında fərq yoxdur. Avropa İttifaqında o qədər problem var ki, heç Brüsselin özü də “Şərq Tərəfdaşlığı” proqramına xüsusi diqqət ayıracaq durumda deyil. Bu bir növü Avropa İttifaqının Qonşuluq Proqramına və ya TRASSEKA layihəsinə bənzəyir. Vaxtilə bunlar haqqında da çox danışırdılar, indi xatırlayan belə yoxdur. Buna baxmayaraq, Azərbaycan unudulan bu proqramlarda iştirak edir. “Şərq Tərəfdaşlığı” proqramının da üzv ölkələrin inteqrasiya yolunda xüsusi nəticə əldə edəcəyini düşünmürəm. Elə Almaniyanın kansleri Angela Merkel Riqadakı çıxışında proqramı əhatə edən ölkələrinin Avropa İttifaqına üzvlüyə ümid etməmələrini məsləhət gördü.

**- Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığı dəyişəcəkmi?**

- Avropa İttifaqının Azərbaycana, Azərbaycanın isə Avropa İttifaqına ehtiyacı var. Azərbaycan TAP və TANAP boru xətlərinin inşasına ona görə qoşulub ki, öz qazını Avropa bazarına daşısın. Yaxın gələcəkdə Avropa bazarı Azərbaycanın əsas gəlir mənbəyinə çevriləcək. Avropa İttifaqı isə Azərbaycanın sayəsində Rusiyadan qaz asılılığını azaltmağa müvəffəq olacaq. Buna görə də Şərq Tərəfdaşlıq Proqramının yerində saymasına, assosiativ sazişin imzalanmamasına baxmayaraq, yaxın perspektivdə Avropa İttifaqı - Azərbaycan əməkdaşlığı enerji sahəsində strateji əhəmiyyət daşıyacaq. Bundan başqa rəsmi Bakı Brüsselə assosiativ saziş əvəzinə strateji əməkdaşlıq sazişi imzalamağı təklif edib. Bu sazişin əhəmiyyəti ondadır ki, Bakı Brüsselə əməkdaşlığın limitini müəyyənləşdirmək istəyir. Məsələn, rəsmi Bakı insan haqları və demokratiya məsələlərində Avropa İttifaqının Azərbaycanın daxili işlərinə qarışmasını istəmir. İndi Brüsselin bu yanaşmanı qəbul edib-etməyəcəyi gələcək danışıqlardan asılı olacaq.

❑ **KƏNAN**

# V.Putin borcunu qaytarmağa gəlir?



**Hüseynbala SƏLİMOV**

**Rusiya prezidenti V.Putinin Avropa oyunları zamanı Bakıya səfər edəcəyi haqda xəbər doğrusu bizə təəccüblü görünmədi. Hansısa daxili hiss deyirdi ki, o, bu tədbirdə iştirak edəcək...**

Bəlkə də irəlicədən ondan başlamaq daha düzgün və həm də daha məntiqli olardı ki, ABŞ və Avropa tərəfindən sıxışdırılan Rusiyanın prezidenti tədbirdən nəinki kənarda qalmağa çalışacaq, əksinə, özünü bu tədbirin mərkəzi fiqurlarından birinə çevirməyə cəhd edəcək...

Bu elə bir yeni diplomatik tryuk da deyil. Demək olar ki, sanksiyalara məruz qalan ölkələr bir qayda olaraq həmişə belə edirlər...

Bir də görürdün ki, məsələn, İran da hansısa məsələni çak-çevir edərək onun müzakirəsini Tehrana keçirir və bununla da özü haqqında normal siyasi həyat yaşayan dövlət obrazı yaratmağa çalışırdı...

Həm də sanki göstərmək istəyirdi ki, sizin sanksiyalarınız mənim üçün hansısa əhəmiyyət kəsb etmir- guya ki, İran özünün dinamik həyatını yaşayır və sanksiyaların təsirini heç hiss etmir...

İndi Avropanın və ABŞ-ın bütün toplantıları Rusiyanın müzakirəsilə başlayır və onun müzakirəsilə də bitir. Ən azı bu detal göstərir ki, münasibətlər deyilən qədər də mülayim deyil - o, hələ ki, ifrat soyuqluq həddində olmasa da, buna doğru getməkdədir...

Rusiyanın özünün bu müzakirələrin çoxuna girişi yoxdur və Azərbaycan bundan səmərəli şəkildə yararlanmağa çalışır. Belə ki, ya onların işində iştirak etmir və yaxud da Riqa sammitində olduğu kimi, bir qədər aşağı səviyyədə təmsil olunur, ya da ki, həmin toplantılarda Rusiyanı müdafiə etməyə çalışır...

Sözsüz ki, bu, Rusiyanın diqqətindən kənarda qalmır. Təsadüfi deyil ki, V.Putinin Avropa oyunlarının açılışına qatılmaq istəyini bəzi təhlilçilər Riqa sammitində nazir səviyyəsində təmsil olunmağa qərar vermiş və faktiki olaraq sammitin işində iştirak etməkdən yayınmış Azərbaycan rəhbərliyinə minnətdarlıq jesti kimi yozmağa cəhd edirlər...

Amma bir qədər də keçmişə getmək lazımdır. Qondarma erməni “genosid”ilə bağlı tədbirlərə qatılmış V.Putin həm türkiyəli, həm də azərbaycanlı həmkarını bir qədər pərt etmişdi, çünki bu tədbirə qədər münasibətlərin yüksələn xətlə inkişaf etdiyi zənn edilirdi. Amma Putin “genosid” tədbirlərinə qatıldı və Rusiyanın çoxəsrlik imperiya məntiqinin çərçivələrindən kənara çıxa bilmədi.

Fransa prezidenti F.Ollanddan da fərqli olaraq o, öz səfərini bir az balanslaşdırmağa, tutaq ki, ertəsi günü Bakıya səfər etməyə də cəhd etmədi...

İndi pərtliyi və soyuqluğu aradan götürmək üçün şans yaranıb- Putinin Bakıda həm Türkiyə, həm də Azərbaycan prezidentilə görüşmək və danışmaq imkanı olacaq. Bununla Rusiya prezidenti bir növ borcunu qaytarmağa cəhd edəcək... Güman ki, onun bu cəhdi həm Türkiyə, həm də Azərbaycan tərəfindən dəyərləndiriləcək, çünki hər iki ölkə Rusiyaya münasibətdə müsbət bir tonda köklənib...

Ümumiyyətlə götürəndə, Rusiya ilə Azərbaycan arasında müəyyən qədər istiləşmiş müansibətlərin yarandığını görməmək çətindir- həqiqətən də ölkələr və rəhbərlər hiss olunacaq dərəcədə yaxın təmaslara can atırlar...

İndi Azərbaycan sanki Rusiya ilə Türkiyəni balanslaşdırmağa çalışır. Bir neçə gün bundan əvvəl Türkiyə ilə birlikdə quruda hərbi təlimlər keçirildi.

İndi də budur, Rusiya ilə birgə dənizdə hərbi təlimlər keçirmək qərarlaşdırılıb. Niyə də bu, balans kimi qəbul edilməsin? Əlbəttə ki, qəbul edilə bilər və qəbul edilir də...

Burada bir detalı da qeyd etmək lazımdır. Putinin erməni “genosid”ilə bağlı tədbirlərə qatılmasına rəğmən Azərbaycan Rusiyadakı Qələbə tədbirlərinə, ikinci dünya müharibəsinin bitməsinin 70 illiyilə bağlı tədbirlərə qatıldı və bu, təbii ki, Rusiya rəhbərliyi tərəfindən nəzərə alınır...

Həm də ən əsası cəmiyyətlər arasındakı münasibətlərdir. Rusiya cəmiyyətinin azərbaycanlılara münasibəti getdikcə daha təmkinli, dözümlü və hətta mütərəqqi formalar alır, xalqlar sanki biri-birini yenidən tanımağa başlayıblar. Sovet dövründən fərqli olaraq bu münasibətlər şaquli vektorlardan asılı olmadan, cəmiyyətlərin özü səviyyəsində, üfüqi istiqamətdə gedir. Bəlkə də bu 24 ildə iki xalq biri-birini 70 ildə olduğundan daha çox tanıya bilib...

Təbii ki, bir detalı da qeyd etmək lazım gəlir. Rusiya Azərbaycanın Avrasiya İttifaqına qoşulacağı ilə bağlı ümidlərini hələ tam itirməyib... Nə demək olar? Ümid hamının haqqıdır, amma ümidlərin hamısı çin olmur...



# Yaxın Şərq savaşının tək qalibi - ABŞ

Kənan RÖVŞƏNOĞLU

**ABŞ-İran münasibətlərinin yaxşılaşması istiqamətində daha bir addım atılıb. Rəsmi Tehran milli şirkətlərin ABŞ şirkətləri ilə ticarət əlaqələrinin genişləndirməsinə icazə verib. İranın ticarət palatası, sənaye, mədən və kənd təsərrüfatı başçısı Qulamrza Şafei deyib ki, İran və ABŞ arasında birgə ticarət palataları qurula bilər.**

Bu, aprelin 2-də İsveçrənin Lozanna şəhərində İran və "altılıq" ölkələri arasında əldə olunan nüvə sazişindən bu yana ABŞ-İran münasibətlərinin istiləşməsi istiqamətində atılan növbəti addımdır. Əslinə baxanda Vaşinqton hələ nüvə sazişi əldə olunmadan öncə İranın xarici ölkələrdəki dondurulmuş hesablarını açmaqla Tehrana jestlər etmişdi. Anlaşmadan sonra isə qarşılıqlı addımlar davam edir.

Əlbəttə, müsbət addımdır. Nəhayət ki, dünya daha bir müharibə riskindən qurtulur və ABŞ-İran gərginliyi öz yerini anlaşmalara, sülhə verir. Lakin doğrudanmı, sülh gəlir? Məsələ burasındadır ki, hazırda faktiki olaraq Yaxın Şərq müharibə alovuna bürünüb. Regionun bütün dövlətləri bu və ya digər formada savaş iştirakçısına çevrilib. İraq, Suriya, Yəmən, Liviyada davam edən müharibələr faktiki olaraq region ölkələrini də özünə cəlb edib. Yaxın şərqin bütün dövlətləri demək olar ki, bu və ya digər formada savaş iştirakçısıdır. Bəzisi əsgər göndərməklə, bəzisi isə sadəcə hərbi-siyasi, kəşfiyyat, təchizat və sair formalarda savaş iştirakçısına çevrilib.

Amerika isə bu savaşın tam mərkəzindədir. Vaşinqton İraqda İŞİD-ə qarşı koalisiya qurur, Yəmənə qarşı koalisiyaya kəşfiyyat və təchizat dəstəyi verir. Suriyada hökumətə qarşı olan qüvvələri dəstəkləyir, maliyyələşdirir. Və bütün bunların fonunda həm də İranla dost münasibətləri qurmağa çalışır. Mürəkkəb kombinasiya kimi görünür, amma məlum olduğu kimi alınır. Ötən həftə Obama 6 körfəz ərəb dövləti liderlərini Kemp Devidə toplayıb Amerikanın ərəblərə hər cür dəstəyini və müdafiəsini vəd etdiyi vaxtlarda dövlət katibi Con Kerri İranla münasibətlərin istiləşməsi yönündə danışıqları dərinləşdirirdi. Hansı ki, faktiki olaraq Yəmən və Suriya məsələsi ərəblərlə İran arasında savaş səbəbinə çevrilib.

Vaşinqton isə ümidlidir. Bir tərəfdə Tehranla yaxınlaşmanı davam etdirib, o biri tərəfdə ərəb rejimlərini, İsraili yanında saxlamağa çalışır. Bütün bunlar isə qanlı savaşların müşayiəti ilə olur. Durum isə günü-gündən pisləşir. Ötən həftə yaralı döyüşçülərlə görüşən Livan Hizbullahının lideri Seyid Həsən Nəsrullah bəyan edib ki, artıq Livan daxilində müdafiə konsepsiyasından önləyici müdafiə konsepsiyasına keçir və ümumi səfərbərliyə hazırlaşır. Həsən Nəsrullah bildirib ki, savaş daha çox uzana bilər və daha geniş əraziyə yayıla bilər. Son günlərdə Hizbullah qruplaşmasının Suriyanın Livanla sərhəd bölgəsi olan Qələmunda fəallaşması və Suriya ordusu ilə birlikdə bir sıra mövqeləri geri alması artıq ölüm-qalım savaşının getdiyini, heç bir tərəfin geri çəkilmək niyyətində olmadığını göstərir.

Ancaq aydın məsələdir ki, artıq 4 ildir davam edən və indi getdikcə bölgəyə yayılan bu savaşda hər iki tərəf yorulub. Suriya ordusu radikal qruplaşmalarla savaşda günü-gündən mövqe itirərək geri çəkilir. İraqın artıq bir sıra şəhərləri ələ keçib və ölkə parçalanmanın eşiyinə gəlib. Bu savaşın nəticəsində artıq Yaxın Şərqdə daha əvvəl formal da olsa mövcud olan müsəlman həmrəyliyi artıq bir daha yaranmayacaq. Əksinə, münasibətlər sistemi tamamilə iflasa uğrayacaq, hətta bəzi dövlətlərin bölünməsi qaçılmaz olacaq. Bütün bunların fonunda dəyişməyən yalnız bir görüntü var. ABŞ savaşan hər iki tərəfin dostu, hamisi kimi çıxış edir. Görünən odur ki, bu savaşın yalnız bir qalibi var.

# Nazirin qardaşı redaksiyamıza məktub yolladı

## Yavər Camalovun fermer qardaşı Əlikram Camalov 4 milyonluq borcundan bəhs edən təkzib yazdırıb

**Müdafiə sənayesi naziri Yavər Camalovun qardaşı Əlikram Camalovla bağlı ötən saylarımızdan birində məqalə yazılmışdı. Həmin məqalədə bildirilirdi ki, Əlikram Camalova qarşı Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində cinayət işi başlanıb.**



Yavər Camalov

Bu günlərdə isə Ə.Camalov redaksiyamıza məktub göndərtdirib. Həmin məktubda deyilir: "Yeni Müsavat" qəzetinin 107 saylı 19 may 2015-ci il tarixli sayında dərc olunan məqalədə qeyd olunur ki, "Ə.Camalovun aldığı güzəştli kreditin təyinatı üzrə xərclənib-xərclənməməsininin müəyyən olunması üçün KQMİ auditorlara müraciət edib, "Azərbeynəlxalq audit xidməti" MMC-nin mütəxəssisləri "Hacı Camalxan" KFT-də yoxlama aparıblar. Artıq müvafiq rəy istintaqçılara təqdim olunub. Həmin rəy güzəştli kreditin təyinatı üzrə xərclənmədiyini ortaya çıxarıb".

Qəzetdə "Azərbeynəlxalq audit xidməti" MMC-nin mütəxəssislərinin yoxlama apararaq kreditin təyinatı üzrə xərclənmədiyi qeydiniz təmamilə əsassızdır, auditor təşkilatı təsərrüfatda heç bir audit yoxlaması keçirməyib. Bundan əlavə "Hacı Camalxan" Kəndli Fermer Təsərrüfatının bankdan götürdüyü 3 milyon 950 min manat kredit tam olaraq təyinatı üzrə xərclənmiş, kreditin təyinatı üzrə istifadə edilməsinin monitorinqi bank tərəfindən bir neçə dəfə keçirilmiş, nəticədə kreditin bütünlüklə təyinatı üzrə sərf edildiyi təsdiqlənmişdir".

Yada salaq ki, Ə.Camalovla "Dəmirbank" arasında yaranan kredit qalmaqalından ilk dəfə 2013-cü ildə yazmışdıq.

Ə.Camalovun reaksiyasına səbəb olan yazıda isə onun aldığı güzəştli kreditin təyinatı üzrə xərclənib-xərclənməməsinin müəyyən olunması üçün KQMİ-nin auditorlara müraciət etdiyi vurğulanırdı.

Yada salaq ki, "Yeni Müsavat"ın 2013-cü ilin avqustunda dərc olunan bir neçə sayında "Dəmirbank" ASC ilə Y.Camalovun qardaşı Ə.Camalovun sahibi olduğu "Hacı Camalxan" MMC arasında kredit qovğasının yaşandığı haqda yazılar yer almışdı. Həmin vaxt tərəflər arasında güzəştli kredit məsələsi gərgin mübahisələrə səbəb olmuşdu. Ə.Camalovun vəkili "Dəmirbank"ı məhkəmə ilə hədələyir, bank isə əks tərəfi aldığı kreditə görə ödəmələri həyata keçirməməkdə ittiham edirdi.

Mübahisə predmeti olan güzəştli krediti nazirin qardaşı 2010-cu ildə Sahibkarlığa Kömək Milli Fondunun prezidenti Şirzad Abdullayevin göstərişinə əsasən alıb. Ona regionlarda sahibkarlığın inkişafı üçün Sahibkarlığa Kömək Milli Fondunun müvəkkil seçdiyi "Dəmirbank"dan 3 milyon 950 min manat verilib. Ə.Camalovun rəhbərlik etdiyi kəndli-fermer təsərrüfatına ayrılan 3 milyon 950 min manatın faizlərinin ödənilməsi qrafiki də təqdim olunub. Lakin Ə.Camalov heç bir səbəb göstərmədən pulu ödəməkdən yayınıb. Uzun qovğalardan sonra - 2014-cü ilin noyabrında bank Ə.Camalovdan 1 milyon 200 min geri ala bilib. Lakin yerdə qalan məbləğ yenə də ödənməyib. Məsələ tərəflər arasında çəkişmədən çıxaraq hüquq-mühafizə orqanlarının araşdırma predmetinə çevrilib.

Baş Prokurorluğun mətbuat xidmətinin yaydığı rəsmi məlumatda "Dəmirbank" ASC-nin müraciəti əsasında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırmaların aparılması haqda məlumat var. Həmin məlumatda deyilir ki, İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondunun müvəkkil kredit təşkilatı kimi büdcə vəsaiti və öz vəsaitləri hesabına "Dəmirbank" ASC-dən 2006-2010-cu illərdə kəndli-fermer təsərrüfatının inkişafı, tikinti və sənaye sahəsində işlərin sürətləndirilməsi məqsədilə saxta biznes-planlar və digər sənədlər tərtib edən bəzi fiziki və hüquqi şəxslərin adlarına güzəştli şərtlərlə verilən 10 milyon 666 min 600 manat məbləğində kredit təyinatı üzrə istifadə edilməyib.

Həmin vəsaiti fiziki və hüquqi şəxslərin israf edib mənimsəməsində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 179.3.2 (külli-miqdarda mənimsəmə və ya israf etmə), 195.2 ( külli-miqdarda qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

❑ E.MƏMMƏDƏLİYEV

# Azərbaycanlı qadınlar seks köləsi kimi satılır

## Mehriban Zeynalova: "Onlar əsasən ərlərinin təkidi ilə ölkədən gedənlərdir..."

**BMT baş katibinin xüsusi nümayəndəsi Zeynəb Banqurin münaqişə zonasındakı qadınların vəziyyətinə dair hesabatında İŞİD döyüşçülərinin kölə kimi satdığı qadınlar arasında azərbaycanlıların da olduğunu deyib.**



Mehriban Zeynalova

Hesabatda göstərilir ki, Rakka şəhərindəki seks kölələrinin bazarında yezidilər, xristianlar, şiələr, türklər, azərbaycanlılar və türkmənlər var.

Qeyd edək ki, indiyədək İŞİD-in qadınları kölə kimi satdığını təsdiqləyən onlarla fakt, məlumat və reportajlar yayılıb.

"Təmiz Dünya" Qadınlara Yardım Təşkilatının rəhbəri Mehriban Zeynalova virtualaz.org saytına bildirib ki, kölə kimi satılan azərbaycanlı qadınlar əsasən ərlərinin təkidi ilə ölkədən gedənlərdir: "Müşahidələr göstərir ki, onlar münaqişə zonasına ərlərinin tələbi ilə gedirlər. BMT-nin də təsdiqlədiyi kimi, qadınların kölə kimi satılmasında insan alverinin elementləri mövcuddur".

Hüquq müdafiəçisinin fikrincə, qadınların geri - vətənə qayıtmaları üçün ilk növbədə əsas güc yenə BMT-nin, eləcə də Beynəlxalq Miqrasiya Təşkilatının üzərinə düşür: "Çünki əvvəlcə BMT bu qadınların vətəndaşlığını dəqiqləşdirməli, bundan sonra məxfilik gözlənilməklə qadınlar haqqında mənsub olduqları ölkələrin dövlət qurumlarına məlumat göndərilməlidir. Beynəlxalq Miqrasiya Təşkilatı isə qadınların öz ölkələrinə qayıtmalarına çalışmalıdır. Bu qadınlar ərləri tərəfindən ideoloji beyinyuma prosesi ilə üzləşmiş şəxslər olduqlarından məsələyə həssas yanaşmaq lazımdır".

Qeyd edək ki, BMT-nin insan alverinə dair ötənilki hesabatında da transmilli mütəşəkkil cinayətkarlığın bu təhlükəli növünə demək olar ki, bütün dövlətlərdə və regionlarda rast gəlindiyi göstərilmişdi.

Son 5 ildə 152 ölkədən olan qurbanlar istismar məqsədilə 500-dən çox daimi marşrut üzrə 124 ölkəyə daşınıb. Hər il 20 milyondan artıq şəxsin insan alverinin qurbanına çevrildiyi güman edilir. İnsan alveri qurbanları arasında məcburi əməyə cəlb olunanların sayı isə 40 fazədək artıb.

Hesabatda göstərilir ki, insan alveri qurbanlarının 53 faizi cinsi istismara, 7 faizi isə orqan transplantasiyası və digər məqsədlərlə alqı-satqıya məruz qalır. Qurbanların 21 faizi azyaşlı uşaqlardır.

Azərbaycana gəldikdə isə ötən il həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində insan alveri ilə bağlı 23 cinayət işi üzrə 105 fakt müəyyən edilib. Həmin faktların 97-si insan alveri, 5-i məcburi əmək, əlavə olaraq 3 fakt insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə bağlı olub.

İnsan alveri və məcburi əmək cinayətləri törətdiklərinə görə 26 şəxs (18 qadın, 8 kişi) cinayət məsuliyyətinə cəlb edilib və insan alveri qurbanı olaraq 54 nəfər (51 qadın, 3 kişi, onlardan 3-ü əcnəbi şəxsdir) müəyyən edilib.

Ötən il insan alveri ilə məşğul olan 9 cinayətkar qrup və 1 mütəşəkkil dəstə ifşa edilərək zərərsizləşdirilib, 1 mütəşəkkil dəstə yaxalanıb. İnsan alverinin qurbanı olan 38 nəfər (35 qadın, 3 kişi, o cümlədən 3 əcnəbi şəxs) təhlükəsiz sığınacağa yerləşdirilib. Onlardan iki nəfəri "Təmiz Dünya" təşkilatının sığınacağında məskunlaşıb.

YENİ MÜSAVAT
N 112 (6140) 25 may 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Avropa Birliyi ərazi bütövlüyümüzü dəstəklədi, bəs sonra?

## Riqa sammitinin yekun bəyannaməsinə Qarabağa dair BMT qətnamələri salınmasa da, sənəddə Krımın işğalının pislənməsi ilə Ermənistana da mesaj verilib; Bakını narazı salan əsas məsələ haqda bir daha...



**Riqada Avropa Birliyinin “Şərq tərəfdaşlığı” sammiti başa çatdı. Növbəti belə bir sammitin 2017-ci ildə Moldovada keçirilməsi qərara alındı. Avropa Birliyinin Riqa toplantısının yekunlarına dair ziddiyyətli yanaşmalar olsa da, bir amil özünü qabarıq şəkildə göstərdi - bu da postsovet məkanı ölkələri üzərində Rusiya təhlükəsinin Domokol qılıncı kimi asılı qaldığının etirafı və yazılı şəkildə fiksə edilməsi oldu.**

Təqdirəlayiq hal həm də odur ki, qəbul edilən yekun bəyannamədə Avropa İttifaqının “Şərq tərəfdaşlığı” proqramının iştirakçı ölkələrinin ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəklədiyi qeyd olunub. Və nə qədər qəribə də olsa, bu sənədə Ermənistan da imza atıb.

Ancaq əfsuslar olsun ki, praktikada Ermənistan illərdir buna əməl etmir. Ona da təəssüflənmək lazım gəlir ki, Rusiyanı işğalçılıqda suçlayan Avropa Birliyi postsovet məkanının digər işğalçı dövləti Ermənistana diametral əks yanaşma sərgiləyir və bu yanaşma, özünü Riqa sammitində də göstərdi: yekun sənəddə Rusiya Krımın işğalına görə əsaslı olaraq və haqqına ittiham edilsə də, Azərbaycanın 20% ərazilərini 25 ildir işğal altında saxlayan Ermənistana qınaq hədəfi olmadı və bəyannamədə təcavüzkar Ermənistanın suçlandığı bircə cümlə də salınmadı. Bu da Azərbaycan tərəfində haqlı narazılıq doğurdu.

Əslində Avropa Birliyinin ərazi bütövlüyümüzü dəstəkləməsi özlüyündə pozitiv haldı. Ancaq reallıqda bu, nə vaxt həyata keçəcək, təşkilat Rusiya kimi Ermənistana da eyni gözlə baxacaqmı və niyə baxmır? Bəlli deyil hələ ki. Hərgah, yekun sənəddə Krımın işğalının pislənməsi ilə əslində təcavüzkar ölkə olaraq Ermənistana da mesaj verilib...

Xatırladaq ki, sammitdə Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarov və Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov təmsil edirdi...




***

“Həll olunmamış münaqişələr ”Şərq tərəfdaşlığı"nda sülhə və əməkdaşlığa davamlı problemlər yaradır". Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bunu xarici işlər naziri Elmar Məmmədyarov Riqa sammitində çıxışı zamanı deyib.

Məmmədyarov bildirib ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etməsi regiondakı qeyri-stabilliyin əsas amilidir: “Ermənistan BMT TŞ-nin məlum 4 qətnaməsinin əhəmiyyətini azaltmağa çalışaraq, onları yerinə yetirməkdən imtina edir. Azərbaycan ATƏT-in Minsk Qrupunun Hərtərəfli Sülh Sazişinin işlənib-hazırlanmasının başlanmasına dair çağırışlarına qoşulur. Ancaq Ermənistan münaqişənin həll olunmasında status-kvonu dəyişəcək istənilən konstruktiv əməkdaşlıqdan yayınır. Bu halda münaqişənin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşməkdə davam edəcək”.

Nazir qeyd edib ki, regionda sülhün, stabilliyin, eləcə də mehriban qonşuluq münasibətlərinin yaradılması Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə mümkündür: “Ermənistan silahlı qüvvələri onlara məxsus olmayan ərazilərdən çıxmalıdır. Etnik təmizləməyə məruz qalmış Azərbaycan əhalisi öz doğma yurdlarına təhlükəsiz və şərəflə qayıda bilmək hüquqlarını həyata keçirə bilməlidir”.

***

Elmar Məmmədyarov Riqa sammitində Azərbaycanla bağlı baş verənlərə də aydınlıq gətirib. Avropa Birliyinin “Şərq tərəfdaşlığı” ölkələrinin ərazi bütövlüyünü birmənalı dəstəklədiyini xatırladan nazir sammitdə mübahisənin nədən ibarət olduğunu açıqlayıb: “Biz bildirdik ki, bizim üçün münaqişənin əsas həlli prinsipi BMT Təhlükəsizlik Şurasının qətnamələridir. Onlar isə bunu sammitin bəyannaməsinə salmaq istəmirdilər. Biz də buna etiraz etdik. Çünki BMT Təhlükəsizlik Şurasının qətnamələri ən önəmli hüquqi sənədlərdir və münaqişə bu sənədlər əsasında həll olunmalıdır. Bununla belə, sonda razılıq əldə olundu ki, Azərbaycan da bəyannaməni imzalasın, ancaq xüsusi rəylə. Mayın 25-də Xarici İşlər Nazirliyi olaraq xüsusi bəyanat göndərəcəyik ki, Azərbaycan bu münaqişənin həllini necə görür. Bu bəyanatı sammitin yekun sənədinə əlavə edəcəklər, bununla da məsələ bitmiş olacaq”.

E.Məmmədyarov sammiti yarımçıq tərk etməsi barədə məlumatlara da aydınlıq gətirib: “Belə bir şey olmayıb. Bu, Ermənistan tərəfinin növbəti uydurmasıdır. Çünki mənim sammiti yarımçıq tərk etməyim üçün heç bir səbəb yox idi”.

***

Onu da qeyd edək ki, Azərbaycanın xarici işlər naziri mayın 24-də Rusiyaya səfər edəcəyini bildirib. Bu barədə danışan Məmmədyarov deyib ki, səfər zamanı Rusiya xarici işlər naziri Sergey Lavrovla Dağlıq Qarabağ münaqişəsini də müzakirə edəcək: “Bundan başqa, Dövlət Dumasının sədri Sergey Narışkin və başqa rəsmilərlə görüşümüz nəzərdə tutulub”.

Anti-Rusiya toplantısı kimi “damğalanan” Riqa sammitindən dərhal sonra Ermənistanın deyil, məhz Azərbaycanın XİN başçısının Moskvaya səfər eləməsi, əlbəttə ki, diqqət çəkir. Hər halda, belə bir səfərin nəzərdə tutulduğu haqda öncədən məlumat verilməmişdi.

Onu da yada salaq ki, Azərbaycan Riqa sammitinin yekun bəyannaməsində “Krımın Rusiya tərəfindən işğalı” ifadəsinə qarşı çıxıb və Dağlıq Qarabağa dair BMT qətnamələrinin sənədə salınmamasına etiraz kimi onu imzalamaqdan imtina edib, yalnız xüsusi rəylə onu imzalayacağını bəyan edib. Mayın 25-də bu xüsusi rəyin nədən ibarət olduğu açıqlanacaq - Məmmədyarov belə deyib.



## Qənirə Paşayevanın türk diaspor rəhbərlərindən Qarabağ xahişi

**Deputat Qənirə Paşayeva Finlandiya Türk diaspor rəhbərləri ilə görüşdə Qarabağ həqiqətlərinin yayılmasında səylərini daha da artırmağa çağırıb. Qənirə Paşayeva Finlandiya Türk Dərnəyi Başkanı Engin Uludamarla görüşüb. Görüş zamanı deputat Finlandiyada fəaliyyət göstərən türk kökənli diasporlardan Xocalı soyqırımı, Qarabağ həqiqətlərinin Finlandiya cəmiyyətinə və dünyaya çatdırılması, bu soyqırımı törədənlərin öz layiqli cəzasını alması, qondarma erməni “soyqırımı”na qarşı mübarizə aparmaq üçün birlikdə çalışmalarını sürətləndirməyi xahiş edib.**

Deputat Finlandiya Türk Dərnəyi başkanı Engin Uludamara Azərbaycana, onun haqlı davasına hər zaman göstərdiyi diqqətə görə təşəkkür edib və rəhbərlik etdiyi “Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu” İB adından ona Azərbaycanla bağlı materiallar, yeni çapdan çıxmış “Karabağ hikayeleri” kitabını da təqdim edib.

Finlandiya Türk Dərnəyi başkanı Engin Uludamar bəyan edib ki, təşkilat indiyədək olduğu kimi, bundan sonra da daim Azərbaycanın həqiqətlərinin daha geniş yayılması, Qarabağ probleminin həlli istiqamətində öz səylərini artıracaqlar. O, qardaş Azərbaycanın Qarabağ ağrısının onların da ağrısı olduğunu bildirib və Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, Azərbaycan həqiqətlərinin Finlandiyada daha geniş yayılması işində əllərindən gələn dəstəyi bundan sonra da hər zaman göstərəcəklərini deyib. Uludamar eyni zamanda Finlandiyada yaşayan azərbaycanlılar və onların təşkilatları ilə də əməkdaşlığı getdikcə gücləndirdiklərini vurğulayıb.

Qənirə Paşayeva Finlandiyadakı Azərbaycan və türk diaspor təşkilatlarının koordinasiya olunmuş şəkildə bir-birlərinə daha sıx dəstək verməlarinin və Türk dünyasını narahat edən bütün problemlərin həllinə kömək göstərmək üçün bərabər çalışmalarının artırılmasının vacibliyini xüsusi diqqətə çatdırıb. Bu istiqamətdə görülən işlər və həyata keçirilməsi planlaşdırılan layihələr barədə məlumat verilib, təkliflər səsləndirilib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 112 (6140) 25 may 2015



# “Ankara-Moskva münasibətlərində Bakı faktoru hər zaman önə çıxıb”

## Orxan Qafarlı: “ABŞ-İran əlaqələrinin yaxşılaşması Rusiya və Türkiyəni geosiyasi maraqlar üçün yaxınlaşdırır”

**Bakıda keçiriləcək Avropa Oyunlarının açılış mərasimində Türkiyə və Rusiya prezidentləri də iştirak edəcək. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, prezident İlham Əliyev Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı Avropa Oyunlarının açılış mərasimində iştirak üçün Bakıya dəvət edib. Türkiyəli nazirin sözlərinə görə, Ərdoğan Bakıya gələcək.**

Rusiya prezidenti Vladimir Putinin də I Avropa Yay Oyunlarının açılış mərasiminə qatılmaq üçün Bakıya gələcəyi dəqiqləşib. Bu haqda Kremlin mətbuat xidmətinə istinadən xəbər yayılıb. Mətbuat xidmətindən o da əlavə edilib ki, Rusiya prezidentinin Azərbaycana səfərinin təfərrüatları barədə daha ətraflı sonra məlumat veriləcək.

Eyni zamanda mətbuatda iki ölkə liderinin Bakıda bir araya gələcəyi haqda məlumat yayılıb. Nəzərə alsaq ki, 24 apreldə Putinin Çanaqqalaya deyil, İrəvana səfər etməsindən sonra Rusiya-Türkiyə münasibətlərində soyuqluq açıq şəkildə müşahidə olunur, o zaman görüşün əhəmiyyətini xüsusi qeyd etməyə gərək yoxdur. Aydın məsələdir ki, hazırda Bakı həm Ərdoğan, həm də Putinə yaxındır. Hər iki liderin özünü “evindəki kimi” hiss etdiyi Bakıda görüşməsi tamamilə real görünür.

Bəs bu görüş Azərbaycana nə vəd edir? Bakı Türkiyə-Rusiya münasibətlərinin yaxşılaşmasından hansı faydanı gözləyir? Yeni Türkiyə Araşdırmalar Mərkəzinin Avrasiya üzrə eksperti Orxan Qafarlı deyir ki, Türkiyə və Rusiya prezidentlərinin Azərbaycanda Avropa Oyunlarını ziyarətinin iki diqqət çəkən səbəbi var: “Birincisi, Azərbaycan prezidenti İlham Əliyevin həm Türkiyə, həm də Rusiya rəhbərləri ilə isti münasibətlərə önəm verməsidir. Amma bu məsələnin digər önəmli tərəfi geopolitik rəqabətin göstəricisi olmaqdadır. Əlbəttə, liderlər arasında münasibətlər önəmlidir. Bəzən bu liderləri bir birilərinə yaxınlaşdıran dövlətlərinin rasional maraqları olur. Yəni demək istədiyim Azərbaycan, Türkiyə və Rusiyanı narahat edən geopolitik proseslər Avrasiya bölgəsində gedir. ABŞ və İranın yenidən münasibətləri düzəltməsi və Yaxın Şərqdə Vaşinqton-Tehran əməkdaşlığının formalaşmasından rahatsız olan Rusiya və Türkiyə kimi regional güclər var. ”Soyuq müharibə” illərində nə zaman ABŞ Yunanıstan və ya İranla Türkiyə ilə olduğundan daha çox strateji əməkdaşlıq qurmağa başlayıbsa, bunun arxasınca hər zaman Ankara-Moskva əməkdaşlığı görüşləri başlayıb. Təbii, “soyuq müharibə” illərində Ankara Moskva əlaqələri ABŞ-a təzyiq etmək xarakteri daşıyırdı".



Orxan Qafarlı

O.Qafarlı deyir ki, Berlin divarları söküldükdən sonra ilk onillikdə Moskva-Ankara münasibətləri yetərli səviyyədə inkişaf etməsə də, son 10 ildə bu münasibətlər qarşılıqlı bağlılıq xarakteri almaqdadır: “Türkiyə və Rusiya nüvə enerjisi stansiyaları tikilməsindən başlayaraq, Avropaya qaz tranziti və ikili iqtisadi-ticari münasibətləri 100 milyard dollara çatdırmaq kimi hədəflər müəyyən ediblər. Təbii ki, bu münasibətlərin olduğu zamanda ABŞ-İran əlaqələrinin yaxşılaşması faktının üzə çıxması Rusiya və Türkiyəni geopolitik maraqlar üçün yaxınlaşdırır. Tarixən belə olub, Moskva-Ankara münasibətləri yaxınlaşdıqda bunun ilk göstəriciləri liderlərin Bakı ziyarətləri olub. Məsələn, xatırlayın, Süleyman Dəmirəlin 1967-ci ildə Bakıya ziyarəti olub. Çox qəribədir, amma hər zaman Rusiya və Türkiyə yaxınlaşmasında Bakı amili olub. Bu mənada Vladimir Putin və Tayyib Ərdoğanın Bakıda üçtərəfli və ya ikitərəfli formatda bir görüş keçirib, regional məsələləri müzakirəsi baş tuta bilər. Hətta mətbuatın bunda xəbəri belə olmaya bilər”.

Bəs bu yaxınlaşma Azərbaycana necə təsir edə bilər? O.Qafarlının fikrincə, burda iki məqam var. Bunlardan birincisi, Rusiyanın gücüdür: “Türkiyə və Rusiyanı dövlət və regional güc olaraq müqayisə etdikdə, diqqətə almaq lazımdır ki, Ankara Moskvanın qarşısında yetərincə zəifdir. Rusiya ”soyuq müharibə" illərində uzun zaman super güc olmuş bir ölkədir. Sovetlərdən miras olaraq aldığı texnologiyanı bu gün siyasi maraqları üçün davam etdirir. Nəhayət, nüvə silahına sahib olan bir ölkədir. Türkiyənin texnologiya ixracatı Ankaranı Moskvadan asılı duruma salır. Bunun Türkiyə və Azərbaycanı birlikdə asılılığa salması Cənubi Qafqazda Moskvanın maraqlarına xidmət etməsi durumunu yaradır. Siyasi tarixdə Mustafa Kamal Paşanın Qurtuluş Müharibəsində Rusiya Sovet Respublikası ilə yaxınlaşması bizim müstəqilliyimizi itirməmizə səbəb olduğunu unutmamalıyıq. Təbii ki, bu gün bu yaxınlaşma Rusiya işğalı ilə nəticələnməz, amma Cənubi Qafqazda Rusiyanın təsirinin güclənməsinə səbəb ola bilər".

❑ KƏNAN

# “İŞİD-in nüvə silahı əldə etməsi mümkün deyil”

## Arzu Nağıyev: “İŞİD-i yaradan və onun fəaliyyətində maraqlı olan qüvvələr heç zaman buna imkan verməzlər”

**İŞİD yenidən fəallaşaraq İraq və Suriyada bir sıra bölgələri ələ keçirib. İraqın Suriya ilə sərhəd-keçid məntəqəsini keçən həftə tutan İŞİD yaraqlıları, İraqın paytaxtı Bağdadın 110 kilometrliyində yerləşən Ramadi şəhərinə də nəzarəti ələ alıb. Hazırda İraq ordusu qüvvələrini şəhər ətrafında cəmləşdirməyə çalışsa da, əyalət mərkəzinin ələ keçirilməsi ölkədə yenidən panikaya səbəb olub.**

Paralel olaraq Suriyada fəallaşan İŞİD yaraqlıları Suriyada isə qədim Palmira muzey-şəhərini və Tədmur yaşayış məntəqəsini ələ keçirib. Yazın ilk aylarında İraq ordusu və könüllü qüvvələrin hücumları qarşısında xeyli məntəqələri itirən İŞİD-in yenidən fəallaşması şübhələrə yol açır. Müşahidəçilər qruplaşmanın İraqın parçalanmasına səbəb olacağını qeyd edirlər.

Ancaq bu günlərdə məlum olub ki, İŞİD eyni zamanda nüvə silahı ələ keçirməyə can atır. “İndependent” qəzetinin yazdığına görə, qruplaşma üzvləri Pakistandakı tərəfdarları vasitəsilə rüşvət hesabına nüvə silahı və texnologiyalarını ələ keçirməyə çalışırlar. İŞİD üzvləri bildiriblər ki, qarşıdakı bir il ərzində Pakistandan rüşvət hesabına gizli yollarla nüvə silahı komponentləri ələ keçirəcəklər.

Qeyd edək ki, ötən il iyun ayında İraqın ikinci ən böyük şəhəri olan Mosulu ələ keçirən İŞİD adını bütün dünyaya məşhur edib. Həmçinin, Mosulu ələ keçirən zaman İŞİD İraq ordusunun qoyub qaçdığı böyük miqdarda müasir silah və hərbi texnikanı ələ keçirib. Eyni zamanda dünyanın az qala bütün bölgələrindən İŞİD-ə qoşulmuş, eləcə də Səddam Hüseyn ordusunun keçmiş zabitləri hesabına qruplaşma güclü silahlı birləşmələr yarada bilib və ən müasir silah və texnikadan istifadə edir.

Ancaq nüvə silahı dünyanın bir çox nüfuzlu dövlətlərinin belə əldə edə bilmədiyi mürəkkəb bir texnologiyadır. Belə bir silahın İŞİD-in əlinə keçməsi çətin görünsə də, böyük bir risk daşıyır.

Sabiq təhlükəsizlik zabiti, siyasi şərhçi Arzu Nağıyev “Yeni Müsavat” açıqlamasında İŞİD-çilərin nüvə silahı əldə etməsi ehtimalının az olduğunu bildirdi: “Adətən terrorçu təşkilatlar hansısa dövlətlərə hədə-qorxu gəlmək, öz varlıqlarını hiss etdirmək, vahimə yaratmaq üçün bu cür məlumatları dövriyyəyə buraxılar. Ancaq real yanaşsaq, bugünkü dünyada hansısa terror qruplaşmasının rüşvət hesablına nüvə silahı əldə etməsinə imkan verilə bilməz. Nüvə silahı geniş məfhumdur. Bu, müxtəlif təyinatlı nüvə başlıqları, yaxud özündə nüvə komponentləri daşıyan texnologiyaları özündə birləşdirir. Lakin ümumilikdə nüvə silahı və texnologiyalarının hansısa terrorçu qrupun nəzarətinə keçməsi mümkün deyil. Nəzərə almaq lazımdır ki, İŞİD terror təşkilatıdır və aydın məsələdir ki, onun silahı və ya texnologiyanı əldə etməkdə hansı məqsədləri var. Bütün bunlar bəlli olduğu halda kimlərinsə nəyinsə qarşılığında bu texnologiyanı İŞİD-ə satması mümkün deyil”.



Arzu Nağıyev

A.Nağıyev deyir ki, müəyyən dövrdə bu cür gizli texnika və texnologiyaların oğurlanması halları baş versə də, nüvə silahı kimi təhlükəli və mürəkkəb texnologiyanın hansısa pul hesabına alınması mümkünsüzdür: “Müəyyən zamanlarda belə hallar olub ki, hansısa gizli silah və ya texnologiya müəyyən dövlətlər və ya kəşfiyyat orqanları tərəfindən oğurlanır. Ancaq bu zaman bütövlükdə silahın və ya texnologiyanın özü deyil, müəyyən komponentlər, sənədlər olur. Ancaq nüvə silahını bütövlükdə əldə etmək qeyri-mümkün məsələdir. Təsəvvür edin ki, İran kimi böyük bir dövlət artıq neçə ildir bu sahədə çalışmalara baxmayaraq hələ də bunu axıra çatdıra bilmir. Onu da nəzərə alsaq ki, İŞİD-i kim, hansı məqsədlər yaradıb, onların apardığı silahlı mübarizənin məqsədi, hədəfləri nələrdən ibarətdir, apardığı müharibədə kimlər maraqlıdır, bu qüvvələr heç zaman nüvə silahının İŞİD-in əlinə keçməsinə imkan verməzlər”.

❑ KƏNAN

## Türk dili də Avropa Şurasının rəsmi dili olacaq



**Avropa Şurası Parlament Assambleyasında (AŞPA) artıq türkcədən də rəsmi dil kimi istifadə olunacaq. Anspress-in məlumata görə, Şuranın Daimi Komissiyası Sarayevoda yığıncaq keçirib. Sözügedən yığıncaqda Türkiyə barəsində iki önəmli qərar qəbul edib.**

AŞPA türkcəni rəsmi çalışma dili qəbul edən və Türkiyənin üzv sayını 12-dən 18-ə çıxarmağı nəzərə alan qanunu təsdiqləyib. Bununla da Türkiyə Avropa Şurası Parlament Assambleyasında İngiltərə, Fransa, Almaniya, İtaliya və Rusiya kimi 18 deputatla təmsil olunacaq. Qərarın qəbul edilməsinə Türkiyənin Avropada əhali sayının ən çox olduğu üçüncü ölkə olması öz təsirini göstərib.

Daimi Komissiya ayrıca italyanca, rusca və almancadan sonra türkcəni də rəsmi iş dili olaraq qəbul edib. Türkcənin rəsmi dil olması ilə iclaslardakı fəaliyyətlər və sənədlər türkcəyə tərcümə ediləcək. Həmçinin türkiyəli deputatlar iclaslarda türkcə çıxış edə biləcəklər.

Qərarı Avropa Şurası Nümayəndələr Komitəsinin iyun ayında formal olaraq təsdiq etməsi gözlənilir.

**Azərbaycanda dərman preparatlarının keyfiyyəti hər zaman müzakirə mövzusu olub. Lakin son zamanlar sosial şəbəkələrdə yayılan bir video əczaçılıq sahəsi ilə bağlı insanların narahatlığını daha da artırıb.**

**Belə ki, özünü tibb elmləri namizədi, Dəmiryol xəstəxanasının şöbə rəisi doktor Kərimov kimi təqdim edən şəxs ANS TV-nin efirində yayımlanan "Rövşanə ilə bazar səhəri" verilişində canlı yayıma telefon əlaqəsi ilə bağlanaraq Azərbaycanda əczaçılıq sahəsinin problemləri ilə bağlı şok faktlar açıqlayıb.**

# Dərmanlarla bağlı şok iddia

## Adil Qeybulla: "Üçüncü dünya ölkələrində istehsal olunan dərmanların tərkibi haqqında çoxlu şübhələr var"



İki ay öncə olan verilişin videosu sosial şəbəkələrdə rekord həddə izlənib. Doktor Kərimov efirdə bildirib ki, son zamanlar dərman vasitələri xəstələrdə əks-göstərişlərə səbəb olur: "Əksər dərmanlar xəstələrdə ağırlaşmalara səbəb olur. Bu, çox ağır şəkildə özünü büruzə verməsə də, 5-6 iynədən sonra xəstədə qeyri-adi hadisələr baş verir. Bunun səbəbi məlum deyil. Bizim bir yoldaş Almaniyada olanda bir dərman firmasının nümayəndəsi ona deyib ki, mən Azərbaycandan gələnlərə heç bir dərman satmıram, çünki sizin firmalar bizdən tələb edir ki, dərmanı ucuz hazırla, bəzi maddələri qatma. Məsələn, bir dərmanın tərkibində 5 parametr varsa, sifariş verirlər ki, bunun birini qat dərmana, digərlərini qatma, təki ucuz olsun. Almaniya dərman firmasının rəhbəri azərbaycanlını qovub ki, siz öz millətinizin düşmənisiniz. Son zamanlar mən 7-8 dərman preparatını Sank-Peterburqda toksikologiya laboratoriyasında yoxlatdırdım, çalışdım ki, bunun ardınca gedim, lakin burada mənə dedilər ki, sən öz işinlə məşğul ol, bizim öz ekspertizamız var. Mən deyərdim ki, dərmanlar nəinki xəstələrə təsir eləmir, əksinə, əks effekt verir. Çünki dərman hazırlananda onun tərkibinə xüsusi maddə vururlar. Bu maddə vurulmayanda həmin dərman xəstədə çox güclü əks reaksiya verir".

"Yeni Müsavat"a açıqlamasında bu fikirlərə münasibət bildirən tibb elmləri doktoru Adil Qeybulla problemin mövcudluğunu qəbul etsə də, Avropadan gətirilən dərmanlarla bağlı belə bir təhlükənin olmadığını bildirdi: "Avropa istehsalı olan dərmanlar konkret firmaların istehsal etdiyi dərmanlardır və bu firmaların reputasiyası birbaşa dərmanların keyfiyyətindən asılıdır. Kimliyindən asılı olmayaraq heç kim bu dərman firmalarının işinə müdaxilə edə, dərmanların keyfiyyətini dəyişə bilməz. Bu daha çox ikinci dərəcəli dərman istehsalçılarına aiddir. Avropanın dərman firmaları isə nəinki dərman maddələrini, hətta dərman maddələrinə əlavə olunan qatqıları, dərmanın kapsulası və sairi ekoloji təmiz və sağlamlıq üçün təhlükəsiz olan maddələrdən hazırlayırlar. Yəni Avropa istehsalı olan dərmanlara bu tipli müdaxilə etmək mümkün deyil. Bu firmalar hamısı Ümumdünya Səhiyyə Təşkilatına daxildir".

Ekspert bildirdi ki, bu daha çox üçüncü dünya ölkələrinin istehsal etdiyi dərman preparatlarına aiddir: "Üçüncü dünya ölkələrində istehsal olunan, naməlum tərkibli, müəmmalı istehsal yeri olan dərmanların tərkibi haqqında çoxlu şübhələr var. Bu şübhələr ortaya çıxmasının səbəbi odur ki, bu dərmanların təyinatından alınan kliniki nəticələr yetərli deyil. Buradan isə belə bir nəticəyə gəlmək olar ki, dərmanın tərkibində əsas maddə ya yoxdur, ya az miqdardadır, ya da həmin maddə qatqılardan tam təmizlənməyib. Bu da dərmanın keyfiyyət parametrlərinə təsir edir ki, onlar orjinal dərmanlar kimi effektli olmur. İnkişaf etməmiş ölkələrdə dərman istehsalı ilə bağlı problemlər var. Burada istehsal prosesində texnologiyanın yenilikləri tətbiq olunmur, dərman istehsalına verilən tələblər yerinə yetirilmir. Bu baxımdan həmin dərmanların keyfiyyəti də şübhə doğurur".

A.Qeybulla vurğuladı ki, bu verilişdə iddia olunan fikirləri birmənalı şəkildə bütün dərmanlara aid etmək doğru deyil: "Bir məsələni ortaya qoymaq lazımdır ki, bu cür dərman maddələrinin ölkəyə gətirilməsinə birdəfəlik son qoymaq üçün dövlət farmokologiyası yaratmalıyıq və yalnız ÜST-nin reystrində olan dərmanlar Azərbaycana idxal olunmalıdır. Əgər belə bir məsələ ortaya qoyulsa biz istehsal yeri və keyfiyyəti şübhə doğuran dərmanların Azərbaycana ayaq açmasına imkan vermərik. Burada administrativ üsullar da fayda vermir. Çünki söhbət biznes maraqlarından gedir və təcrübə göstərir ki, bu kimi hallarda administrativ üsullar heç bir nəticə vermir. Azərbaycanda dərmanların keyfiyyətinə nəzarət edən laboratoriyaların keyfiyyəti məni qane etmir. Bu haqda yalnız mətbuatdan oxuyuruq ki, belə bir laboratoriyalar var. Azərbaycanda yüksək texnologiyalarla təmin olunmuş laboratoriyalara və ixtisaslı kadrlara ehtiyac var ki, bu problemə nöqtə qoysun".

❑ **Nərgiz LİFTİYEVA**

# Şah İsmayılın şəkli konyak şüşələri üzərində - ədalətlimi?

**Azərbaycan tarixinin görkəmli şəxsiyyətlərindən biri də heç şübhəsiz, Şah İsmayıl Xətaidir. Onun şəxsi ilə bağlı bəzi ziddiyyətli yanaşmalara rəğmən, Xətai öz dövrünün parlaq isimlərindən biri kimi, 14 yaşında hakimiyyətə gəlib Azərbaycanı ilk dəfə vahid dövlətdə birləşdirən sima kimi tarixə düşüb. Səfəvilər dövlətini yaradan Şah İsmayıl həmçinin, Azərbaycan ədəbiyyatında öz yeri olan şairlərdəndir.**




Musavat.com cenubnews.com-a istinadən Xətainin öz hakimiyyəti dövründə dininə, dilinə üstünlük verən şəxsiyyət kimi də xatırladaraq qeyd edir ki, ilk dəfə olaraq türk dilini rəsmi dövlət dili elan edən dövlət başçısı da məhz Şah İsmayıl xətai olub: "Şah İsmayıl habelə zəmanəsinin dindar lideri olub. O, həmişə Əhli-Beyt (ə)-a xas xüsusiyyətləri öz hakimiyyətinə inikas etdirməyə çalışırdı. Hər zaman inancına görə əziyyətlər görən Əhli-Beyt (ə) tərəfdarları onun hakimiyyəti dövründə rahat yaşayıblar. Şah İsmayılın qurduğu Səfəvilər dövləti tarixdə "Qızılbaşlar" dövləti kimi də tanınır, çünki onlar 12 imamın şərəfinə başlarına on iki zolaq bağlayardılar".

Azərbaycanın həm ədəbiyyat, həm də tarix kitablarında Xətai haqqında yetərincə məlumatlar var və sevindiricidir ki, indiki tədris kitablarında da bu dahi şəxs haqqında xeyli məlumatlar verilir. Ancaq təəssüflər olsun ki, Şah İsmayıl çox yanlış tərəflərdən də təbliğ olunur. Məsələn, Azərbaycanda fəaliyyət göstərən şərab zavodu üstündə Şah İsmayıl Xətainin şəkili olan, "Şah İsmayıl" adlı konyak istehsal edərək satışa buraxır.

Fikrimizcə, bu, təkcə Azərbaycan tarixinə, Azərbaycan şairinə deyil, Azərbaycanda islamın yayılmasında mühüm rolu olmuş bir şəxsiyyətə hörmətsizlikdir. Belə neqativ hallara göz yumularsa, gələcək nəsillərdə Şah İsmayılı haqda yanlış təsəvvürlər formalaşa bilər.

Ümid edirik ki, müvafiq dövlət qurumları, Qafqaz Müsəlmanları İdarəsi, Dini Komitə bu fakta laqeyd qalmayacaqlar.

# Yerdə kim qaldı? Alabala...



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Təxminən il yarım bundan öncə idi. Bir tədbirə getmişdim, Prezident Aparatı rəsmisi Əli Həsənov da tədbirdə idi. Jurnalistlər qapının ağzında dövlət rəsmisini gözləyirdilər ki, sual versinlər. Operatorlar kameralarını düzmüşdülər, jurnalistlər mikrofonlarını hazırlamışdılar. Ay "sən qıraqda dur", bay sənin başın kameranın qabağını kəsdi... Həşirin biri beş qəpikdən idi. Deyərdin, indi Əli Həsənov gələcək, bunlar da suallarla onu təntidəcəklər. Gəldi gəlməsinə, amma bilirsizmi nə oldu? O boyda jurnalist ordusundan bir normal sual çıxmadı. Adam da bunların potensialına bələddi axı, başladı az öncəki tədbirin mövzusundan danışmağa ki, televizyonçu təbiri ilə desək, süjetə "şapka" hazırlansın...**

O gün Abid Şərifov yanan binada iş görəcək şirkətin adını soruşan jurnalisti "sənə dəxli var" deyib, acılayanda yadıma düşdü bu mənzərə. Necə deyərlər, iynəni özümüzə, çuvaldızı başqasına. Mən demirəm ki, Şərifov haqlı idi, ya da o sual yersiz idi. Sual yerində idi, özü də dəmir məntiqi ilə birgə. Amma jurnalist öz sualının arxasında dayana bilmədi. Orda nə abır-həya gözləmə yeri idi, nə ağsaqqal-qarasaqqal... Sən jurnalistsən, o məmur-müsahib. Adam sənin sualına "sənə nə dəxli var? Alabala" deyə öz aləmində Cem Yılmazfason cavab verirsə, sən də ona çox mədəni səs tonu və söz seçimi ilə izah edirsən ki, ağsaqqal, "sənə nə aidiyyatı var" deyə-deyə qosqoca binanı yandırdız, 16 nəfəri qara torpağın altına göndərdiz. O vaxt da jurnalistlər soruşurdu ki, bu binaları üzləyən şirkət kimdir, nədir, susurduz. Aləm bir-birinə dəyəndən sonra isə hamı bir ağızdan mələşdi ki, bəs o şirkət binaları könüllülük əsasında, büdcədən bir qəpik də almadan üzləyirmiş. Əsl zarafat bax o idi, özü də şitindən. Axı bu ölkədə kim əmindir ki, sabah işini yaxşı görmədiyi, binanı keyfiyyətli təmir etmədiyi üçün o şirkət də cəzalanmalı olmayacaq? Binanı üzləyib, insanların ölümünə bais olan digər şirkət kimi. O halda bu nə əsrar, bu nə məntiqsiz söz güləşdirmə?

Abid Şərifovun bu sayaq kobudluqlarını jurnalistlər tez-tez görüb. Yadımdadır, bir brifinqində şəxsən özüm şahidi olmuşdum. Quş qripi dünyada tüğyan edən ərəfə idi, bizə də gəlib çıxmışdı, bir mətbuat konfransından sonra yaxınlaşıb soruşduq ki, "bəs təhlükəsizlik məqsədi ilə broyler firmalarında monitorinq keçirəcəksiz?". O yaşda kişi yaşına-başına, statusuna, qarşısındakının jurnalist olduğuna baxmayaraq nə dedi bilirsizmi? Ovcunu tutdu burnuna və Allah heç qoymasa şəkili hazırcavablığı elədi: "Ovcumun içini iyləmişəm?" Özü ağılda olan bir neçə hökumət jurnalisti vardı ətrafda, güldülər, "aldız cavabınızı" deyə rişxənd elədilər. Amma sağ olsunlar, onlar ağılda olmayanlar və elə bəndəniz axıra qədər israr etdik və bunun üçün ovuc iyləmək yox, planlar paketi hazırlamanın vacibliyini babamız yaşında olan bu kişiyə anlada bildik. Sonda pes etdi və dedi ki, biz çoxdan başlamışıq monitorinqə, sadəcə sonuclar bəlli olan zaman mətbuata məlumat verəcəyik.

Şərifovun jurnalistlərlə bu cür davranışının kökündə onun özünə bu qədər əminliyi yox, jurnalistlərə olan saygısızlığı dayanır. Gəlin etiraf edək, həmkarlarımızın səviyyəsi, savadı ildən-ilə aşağı düşür. Jurnalistlər görmüşəm ki, maraqlı, informasiya dolu bir məmuru uzaqdan görən kimi mikrafonunu da götürüb qaranəfəs yanına qaçır və ... sonra kimlərinsə sual verməsini gözləyir. Yəni, bəzi həmkarlarımız oxumur, xəbər izləmir və dünyadan bir çox hallarda bixəbər olurlar. Bu zaman da onların sualsız qalması, ya da dəxilsiz, məntiqsiz suallarla özünü gülünc vəziyyətə salması qaçılmaz olur.

Çalışdığı media orqanının bağlı olduğu məmurun qorxusundan sualları udanlar ordusunu da unutmayaq. Mən tədbirlərdə həmkarlar görmüşəm ki, "bizlik deyil" deyib, qosqoca faktın yanından keçiblər, göz yumublar. Məlum binanın yanında ancaq yanğınsöndürənlərə təşəkkürünü çatdıran bina sakinlərinə diktafon, mikrofon uzadan nə qədər qələm əhli var, xəbəriniz varmı? Adamları qınamalı deyil. Lap tutaq ki, bu və ya digər dövlət qurumundan, məmurdan narazılığını bildirən açıqlama, yanğın hekayəsini öyrəndi, yazdı... Bunu harda yayımlayacaq? Evinin divarlarına yazıb yapışdıracaq? Ya da fərz edək, hansısa məmura sərt sual verdi, divara dirədi... Heç redaksiyasına çatmamış işdən çıxarılma əmri hazır olmayacaqmı, qapını göstərməyəcəkmi rəhbərlik? O halda hansı cəsarətdən, hansı savadlı sualdan danışmaq olar?

Bir qismini tutdular, bir qismini cəzalandırdılar, başqa birini satın aldılar... Yerdə qaldı kim? Lənət şeytana, Alabala... Bu dəfə Şərifovun yox, bizimki...

# "Eurovision"un 60-cı qalibi İsveç oldu

## Elnur Hüseynov ilk onluğa da düşə bilmədi; Azərbaycan ən yüksək balını Rusiyaya verdi; **Murad Dadaşov:** "Elnur bizim üçün həmişə qalibdir..."

**Mayın 23-də Vyanada "Vienner Şdathal" arenasında 60-cı "Eurovision" mahnı müsabiqəsinin final şousu baş tutub. Final konserti Avropanın 45-ə yaxın ölkəsində canlı yayımlanıb.**

Ənənəyə uyğun olaraq "Eurovision-2015" şousunun aparıcıları Arabella Kiesbauers və müsabiqənin ötənilki qalibi Konçita Vürst mötəbər layihənin tamaşaçılarını salamlayıb və iştirakçılara uğurlar arzulayıblar. Sonra möhtəşəm şou nümayiş olunub. Təqdim olunan hər bir ölkənin videoçarxında "Körpüləri birləşdirək" şüarı əsas götürülüb.

Açılış performansından sonra səhnəyə ilk olaraq 60-cı "Eurovision" mahnı müsabiqəsinin final şousunda adı birinci olan Sloveniya təmsilçisi Maraya çıxıb. Daha sonra Fransa, İsrail, Estoniya, Böyük Britaniya, Ermənistan, Litva, Serbiya, Norveç, İsveç, Kipr, Avstraliya, Belçika, Avstriya, Yunanıstan, Monteneqro, Almaniya, Polşa, Latviya, Rumıniya, İspaniya, Macarıstan, Gürcüstan, Azərbaycan, Rusiya, Albaniya, İtaliya təmsilçiləri performanslarını təqdim ediblər.

Azərbaycanın "Eurovision 2015" mahnı müsabiqəsində təmsilçisi Elnur Hüseynov yarışmanın final mərhələsində səhnəyə iyirmi dördüncü çıxıb. O, İsveç bəstəkarları Sandra Byurman, Nikolas Rebşer, Lina Hansonun bəstələdikləri "Hour of wolf" mahnısını ifa edib. Onun ifası tamaşaçılar tərəfindən hərarətlə qarşılanıb.

Çıxışlardan sonra təmsilçilərə səs göndərmək üçün 15 dəqiqə vaxt ayrılıb. "Eurovision" mahnı müsabiqəsinin qaydalarına əsasən, yarışmanın finalından bir gün əvvəl münsiflər səs verirlər. Onların səsləri final şousu başa çatanadək gizli saxlanılır və müsabiqənin yekununda tamaşaçı səslərinin üzərinə əlavə olunur.

Səsvermə zamanı Azərbaycan təmsilçisi Elnur Hüseynova Çexiya 12, Gürcüstan 10, Malta və Monteneqro 8, Rumıniya, Rusiya, Moldova 3, Litva isə 2 xal verib.

Azərbaycandan isə 8 səs İtaliyaya, 10 səs Gürcüstana, 12 səs isə Rusiyaya verilib. Beləliklə, ümumi səsvermənin yekununda İsveç təmsilçisi Masn Zelmerlöv 365 səslə müsabiqənin birincisi olub. Polina Qaqarina (Rusiya) 303 səslə ikinci, İl Volo (İtaliya) isə 292 səslə üçüncü yerləri tutublar. Azərbaycan 12-ci pillədə qərarlaşıb. Ermənistan təmsilçiləri isə 16-cı yeri tutublar.

Müsabiqənin ənənəsinə uyğun olaraq, qalib ölkənin təmsilçisi yenidən "Eurovision"un əsas səhnəsinə çıxaraq ifasını təkrarlayıb. Ona yarışmanın rəmzi olan "Billur mikrofon" təqdim edilib. Onun qalib gəlməsini təmsil olunan iştirakçılar təbii qarşılayıb. Çünki müsabiqənin ilk günlərindəcə çoxları məhz onu favorit hesab edirdi.

Qeyd edək ki, cəmiyyətimizdə Elnur Hüseynovun qalib gələcəyindən narahat olanlar da var idi. Güman edilirdi ki, Avropa Oyunlarından sonra bu cür layihənin yenidən Azərbaycanda reallaşması ölkə iqtisadiyyatına əlavə sıxıntı yaşada bilər.

Tanınmış şoumen Murad Dadaşov bu barədə "Yeni Müsavat"a açıqlamasında maraqlı mövqedən çıxış edədi:

"Eurovision" mahnı müsabiqəsinin Azərbaycanda keçirilməsinə hazır olub-olmadığını yalnız aidiyyəti təşkilatlar qərar verə bilər. İstəməzdim ki, mətbuatda, sosial şəbəkələrdə bu cür anlaqsız müzakirələrə yer verilsin. Ən azından unutmamalıyıq ki, orda erməni təmsilçiləri də var idi. Biz istedadlı təmsilçimiz Elnur Hüseynovu sonadək dəstəkləməliyik. O, ölkəmizi çox yaxşı şəkildə təmsil etdi. Elnur Hüseynovun nəçənci yerə çıxmasından asılı olmayaraq mənim üçün o, həmişə qalibdir. Elnur o ana qədər çox böyük yol keçdi. O, Türkiyədəki çıxışları ilə böyük bir ölkənin rəğbətini qazandı. Bu gün Türkiyə mətbuatı Elnur haqqında danışır, yazır və bunun özü bir qələbədir".

Murad Dadaşov "Eurovision" mahnı müsabiqəsini Azərbaycan üçün "keçmiş etap" adlandırıb: "Biz bir dəfə qalib gəldik. Hazırda isə Azərbaycanda ondan qat-qat üstün layihələr həyata keçirilir. "Eurovision" mahnı müsabiqəsi adi bir televiziya layihəsidir. İnanmıram ki, bu gün Avropanın hansısa ölkəsində qalib gəlmədikləri üçün insanlar matəm qursunlar".

Əlavə edək ki, yarış başa çatdıqdan sonra İsveç təmsilçisi Masn Zelmerlöv mətbuat konfransında onu qalib edən "Heroes" ("Qəhrəmanlar") mahnısı haqqında maraqlı açıqlama verib. O, mahnının orta məktəblərdə yeniyetmələrə qarşı olan zorakılıq mövzusundan qaynaqlandığını bildirib: "Mən bu mahnı ilə dələduzlar tərəfindən izlənən uşaqlara diqqət çəkmək istədim. Kim olmağımızdan və kimi sevməyimizdən asılı olmayaraq, biz hamımız qəhrəmanıq! Düşürürəm ki, cəmiyyətdə zəifləri müdafiə edərək, onlara dəstək olmalıyıq".

Müğənni yeniyetmələrin zorakılığa məruz qalmasından bəhs edən mahnının şəxsi həyatında baş verən hadisələr əsasında yarandığını etiraf edib. O, öz qalibiyyəti ilə "Eurovision"da ölkəsinə 6-cı dəfə birincilik gətirib.

Xatırladaq ki, Azərbaycan 2008-ci ildə "Eurovision" mahnı müsabiqəsində uğurla debüt etmişdi. Belə ki, ilk təmsilçilərimiz Elnur Hüseynov və Samir Cavadzadə birlikdə "Day After Day" mahnısını ifa edərək 132 balla 8-ci yerin qalibi olmuşdular. Ölkəmiz 2011-ci ildə Ell və Nikkinin ifa etdiyi "Running Scared" adlı mahnının qalib gəlməsi nəticəsində 2012-ci ildə 42 ölkənin iştirakı ilə müsabiqəyə ev sahibliyi etmişdi.

**Xalidə Gəray**
















## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyüməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**

**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**

**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**

**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

Yeni MÜSAVAT
N 112 (6140) 25 may 2015

# Norveçli mühacir Hüseyn Abbaszadənin inanılmaz dramı...

**Onun Norveçə necə gəlib çıxdığını, burada necə qaldığını eşidəndə... ayağımın altından o qosqoca Oslo torpağı qaçırdı az qala. Gördüyüm ən sentimental Hollivud filmlərindən daha sentimental, oxuduğum ən faciəli romanlardan daha faciəli... Osloda yaşayan həmyerlimiz Natiq Ələsgərov (yeri gəlmişkən, mühacirət müsahibələrinin sonuncusu onunla olacaq və sabahkı sayımızda işıq üzü görəcək-S.T) onu bəndənizə təqdim edəndə elə beləcə də demişdi: "Onu anası burda qoyub və gedib... "**

# "Anam bizi uşaq yaşlarında Norveçdə qoyub getdi..."

## "Bir səhər oyandıq ki, anam yoxdur, başladıq ağlamağa"

İnanmadım əvvəl. Mən bu layihə boyunca o qədər fərqli "teldən çalan" mühacir görmüşdüm ki. Həqiqi siyasi mühacirlər də vardı danışdıqlarım arasında, "it gəldi, köhnə çarıxı apardı" tipində bəhanələrlə qürbəti özünə məskən tutan da, "qonşusunun qohumunun əmisi oğlunun" köməyi ilə sənəd düzəldib siyasi mühacir havalarıyla ortalarda gəzənini də. Amma və amma... uşaq yaşında anası tərəfindən Oslonun mərkəzində tərk ediləni barədə ilk dəfə idi ki, eşidirdim. Üstəlik, bir azdan özü ilə də şəxsən görüşəcəkdim. İdman ustasıdır, güləş üzrə dərəcəsi də var...

Hüseyn Abbaszadə ilə Osloda qaldığım otelin konfrans zalında görüşürəm. Səfərimin bitməsinə bir gün qalmış söhbətləşə bilirik. Xeyli təvazökardır, dediyinə görə, mətbuata çıxmağa həvəsli deyil. Amma anası oxusun, onunla qürur duysun deyə də razılaşır danışmağa. Bu da ayrı bir hekayə...

***- Hüseyn, başlayaq bura gəlişinizdən. Ucundan-qulağından eşitdiyimə görə, hekayəniz standart deyil. Hətta standartlardan xeyli kənardadır.***

- Anam bura işləməyə gəlmişdi. Sonra o, çıxıb getdi. 14 yaşında idim bura gələndə. Azyaşlı olduğum üçün burda oturum verdilər. İqtisadiyyatı oxuyuram hazırda.

***- Hər şey bu qədər sadə ola bilməz axı. Ananız bura işləməyə gəldi və sonra sizi qoyub getdi. Hər şeyin bir səbəbi var. Bu olayın da həmçinin...***

- Yaxşı, danışım. Dövlət bizə oturum vermirdi. Göndərmək istəyirdilər geri. Göndərmək istəyən vaxt anam bizi qoyub getdi. Uzun illər bizi axtarmadı. Anam bizi burda düşünərək qoyub getdi. Bizim Azərbaycanda vəziyyətimiz yaxşı deyildi, geri qayıtmaq istəmirdik. Anam isə düşünmüşdü ki, bizi burda qoysa, dövlət sahib çıxar. Çünki buranın qanunlarına görə dövlət valideyni olmayan azyaşlıları geri göndərə bilməz.

***- Günlərin bir günü səhər oyandız və gördüz ki, ananız yoxdur. Eləmi?***

- Bəli, elə oldu. Gördük ki, anamız yoxdur. Qardaşım və mən çox pis olduq. Anamın harda olduğunu da bilmirdik. Sadəcə bilirdik ki, anamız yoxdur, yiyəsiz qalmışıq.

***- Neçə il sonra əlaqə yaratdı?***

- Oturum alandan, 1 il alandan sonra.

***- Əlaqə yaradıb nə dedi?***

- 1 il sonra zəng etdi və bütün hekayəni bizə danışdı. Bildirdi ki, bizə görə fədakarlıq edib. Bir ana üçün iki uşağını elə onların xatirinə yad bir ölkədə qoyub getmək çox ağır addımdır.

***- Heç incimədiz ondan?***



- İncimədik. Anadan incimək olmaz. Həm də o, bunu bizim üçün etmişdi. İndi o, Bakıda yaşayır, hərdən yanımıza gəlir. Mən onun hər xərcini ödəyirəm, ev almışam anama. Mən onu heç vaxt diqqətdən kənarda qoymuram.

***- Ananız gedəndə yaşınız kiçik idi. Necə baş çıxara bildiz yad ölkədə?***

- Əvvəlcə çox çətin idi. Sonra öyrəşdik. İş, məktəb, məşq... Hər şey adamın öz boynuna düşəndə öyrəşirsən, öyrənirsən, həyatdan baş çıxarırsan.

***- Ananız sizi qoyub gedəndə 14 yaşınız vardı... Yad ölkə, yeni insanlar... Nəyi çətin idi öyrəşmənin?***

- Birinci çətin idi. Norveçlilər soyuq millətdir. Dili öyrənəndən sonra asan olur sosiallaşmaq. Başqa nə problem ola bilər? Hər şey yaxşı getdi. Hər yerdə problem dildir. Uşaq vaxtında gəldiyim üçün mənə dili öyrənmək asan oldu. Ondan sonrası çətin deyil. Amma ən çətini maddi problemlər idi. Evə gəlirsən, yemək yoxdur. Xüsusən məşqdən sonra bu, çox çətin olur. Gündəlik adamın gözünə götürən problemlər bu idi. Amma məktəbdə adama hər şeyin yolunu göstərirdilər. Öyrədirdilər ki, kriminalla məşğul olmaq, narkotikdən istifadə etmək düzgün deyil. Hər şey adamın özündən asılıdır. Hansı çevrədə olmağın çox şeyi həll edir. Biz isə bilirdik ki, burda valideynsizik, ona görə də hamıdan çox diqqətli idik özümüzə qarşı.

***- Norveçlilər asanlıqla qəbul edir əcnəbiləri?***

- Əvvəlcə yox. Çətin olur dostlaşmaq. Əvvəlcədən əfqanlardan tutmuş afrikalılara qədər dostum var idi. Birlikdə dil öyrənirdik. Hər şeyi öyrənəndən sonra norveçlilərlə də dostlaşmaq mümkün oldu.

***- Norveçlilərin xarakter cəhətləri nələrdir?***



**"Azərbaycanda doğulduğumuz üçün psixikamız güclüdür, yoxsa çoxdan intihar edərdik..."**

- Məncə, bu soyuqqanlıq hər şeyi təsvir edir. İnsanlar tanımadıqlarına məsafə qoyurlar. Kimisə tanıyandan sonra başqa cür öyrəşirlər adama. Burda bəzən qonşu heç qonşunu görmür. Qəddarlıq bunlarda yoxdur. Məktəbdə adi davalar da yoxdur. Amma norveçlilərin depressiyaya düşməsi halları çoxdur. Eşitmişəm ki, norveçlilər depressiyaya düşəndə daha çox intihara əl atırlar.

***- İndi özünüzü daha çox norveçli hesab edirsiz?***

- Son illər daha çox norveçli hesab edirəm. Çünki son illər azərbaycanlılarla oturub durmuram. Çevrəmdə daha çox norveçlilərdir.

***- Burda nə işlə məşğulsuz?***

- Oxuyuram, məşq edirəm. Hərdən iş çıxanda işləyirəm. Norveçin vətəndaşı sayılıram. Gələndə miqrant idim, indi statusum dəyişib.

***- Miqrantların qaldığı düşərgələrdə qalmısız yəqin...***

- O qədər yaşamışam. Bizim hekayəmiz çox çətin və qarışıqdır. Çünki birinci anamızla, sonra tək qalmışıq düşərgədə. Üst-üstə 10 düşərgədə yaşamışıq. Uşaq idim deyə daha çox yadımda pozitiv şeylər qalıb. Həm dil öyrənmək, həm aktivləşmək adına çox şey edirdim düşərgədə. Burda uşaq anasız qalanda xüsusi qayğı göstərirlər.

***- Ananız tez-tez gəlir bura?***

- Əlaqə saxlayırıq. Anam bura viza ilə gəlir. Qalmaq imkanı var. Bunlar şərt qoyublar ki, mən kimisə bura gətirib yanımda yaşatmaq istəyirəmsə, illik gəlirim 200 000 kronu keçməlidir ki, o adama baxa biləm, onu saxlayam. Əks halda, o adam da dövlətə yük ola bilər. Mən indi tələbəyəm deyə bu qədər qazanmaq imkanım yoxdur. Amma olan kimi anamı da yanıma gətirəcəm.

***- İdman dərəcələriniz var bildiyimə görə...***

- Braziliya cücütso ilə məşğulam. Bu, cüdo, sambo, güləşin qarışığıdır. Burda təslim olan uduzur. İnkişaf etməkdə olan idman növüdür. İndi qaydasız döyüşdə ən effektiv olan idman növü budur. Öz kateqoriyamda Norveçdə birinci yerdəyəm. Sonra dünyada kateqoriyamda 2-ci yerdəydim, düşmüşəm 3-cüyə. Orda Azərbaycanı təmsil edirəm. Avropa çempionu oldum 1 həftə öncə. Amerikaya gedəcəm və ordakı dünya çempionatında iştirak edəcəm. Amma mənə Azərbaycandan bir dəstək gəlmir. Norveç başqa ölkələr kimi deyil ki, idmançıya pul verələr, xərcini ödəyələr. İdmançı hər şeyi öz cibinin pulu ilə həll edir. Heç kim yardım etmir. 1 ay sonra idman çempionatı olacaq. Mən Azərbaycan adına yarışıram, amma heç kim mənə yiyə durmur...

Özüm də Frontline Academy-də oxuyuram. Məşqçim də 4 qat Avropa çempionudur.

***- Bəs Azərbaycana geri qayıtmaq fikriniz yoxdur?***

- Var. Amma bura Azərbaycandan çox insanlar gəlir, burda yaşamaq istəyənlərin çoxu qayıdır. Anamı başa düşürəm, o darıxır. Amma mən Azərbaycanı kimdən soruşuram, deyirlər ki, "gəlmə geri, burdan qaç". Ondan sonra heç mən gedərəmmi ora? Cavan oğlanlar deyir bunu. Yaşlı adam olsa, başa düşərəm. Reaksiyalar pozitiv deyil. Sakitçilik, demokratiyadır burda. Heç kim yolunu kəsmir burda. Nə istrəyirsən, onu edirsən. Kral üçün də qanun eynidir, fəhlə üçün də. Norveç azad ölkədir.

***- 13 yaşında çıxdığın Azərbaycandan yadınızda nə qalıb?***

- Standart məktəb, playstation klublar... Bunlardan başqa heç nə qalmayıb. Maraqlı xatirəm odur ki, hər dəfə məhəllədən keçəndə hərə bir söz deyirdi, dava düşürdü. Axırı pis qurtarırdı.(gülür) Burda belə bir şey yoxdur.

***- Norveçin nəyinə öyrəşə bilməmisiz?***

- İlk vaxtlar mağazada baxmalı idin ki, satılan donuz ətidir, ya yox. Ya da nəyin içində donuz əti var. Buranın bəzi yeməkləri azərbaycanlılar üçün yaddır, öyrəşmək çətindir. Bura dəhşət soyuqdur. İlk qaldığımız şəhər Oslodan 120-130 kilometr aralıda idi. Bəzən temperatur -30 dərəcə olurdu. Hamar şəhəri idi. Orda qar çox yağır, soyuq çox olurdu.

***- Burda yaşadığınız ən çətin günü... necə xatırlayırsız?***

- Ən çətin gün? "Siz burdan getməlisiz" sözünü eşitdiyimiz gün idi. Bizə anamızla birgə oturum vermirdilər. Sonrakı çətin gün isə anamızın burdan getdiyi gün olub.

***- O zaman ciddi uşaqlıq travmaları yaşamısız...***

- Məncə, yox. Biz Azərbaycanda böyümüşük deyə psixikamız güclüdür. Norveçli olsaydı, çoxdan bu hadisələrin qabağında intihar edərdi. Amma vaxtından tez böyümüşük, çətin həyat keçmişik. Mən balaca qardaşam deyə bir çox şeyləri böyük qardaşım həll edirdi. İndi o qardaşım ailə qurub, işləyir.

***- Sizin evliliklə bağlı seçiminiz necədir? Bildiyim qədər nişanlısız...***




- Norveçli qızlar çox gözəldir. Amma bizim böyüdüyümüz tərbiyə başqadır. Özümüzünkülərə çəkir. Nişanlım da azərbaycanlıdır. Norveçlilər bizimki kimi deyil. Etibar yoxdur. Bunlarla ailə mümkün deyil. Özləri dözmürlər. Taylandlılarla evlənirlər. Ailə qurmaq, uşaq, sədaqət...belə məsələlər onlarda aşağı səviyyədədir. Yüz faiz toplum belə deyil. Yavaş-yavaş ailəyə qayıtma var. 10 il davam edən ailələr azdır.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 112 (6140) 25 may 2015

# Putin yenə ata olur?

Rusiya idmançısı, dünya çempionu Alina Kabayevanın prezident Vladimir Putinin uşağına hamilə olduğu iddia edilib. Putinlə münasibəti olduğu deyilən Kabayeva bir daha Rusiya mediasının gündəmindədir. Həftələr sonra ilk dəfə kamera önünə çıxan Kabayeva hiss ediləcək dərəcədə kökəldiyi üçün hamilə olduğu iddia edilir. 62 yaşlı Putin və 32 yaşlı Alina Kabayeva haqqında tez-tez belə iddialar gündəmə gəlir. Dünya mediasında yer alan bur cür iddialar isə hər dəfə də Kreml tərəfindən rədd edilir. Məlumat üçün bildirək ki, anası rus olan, özbək əsilli idmançı 2000-ci ildə olimpiadalarda bürünc, 2004-cü ildə Afinada qızıl medal alıb.



## WhatsApp-ın sevilməyən yeniliyi

Dünyanın ən məşhur mesajlaşma şəbəkəsi olan WhatsApp-ın son yeniliyi insanları narazı salıb. İstifadəçilər səsli zəng xidmətini işə salan tətbiqin dizaynını dəyişməsini istəyirlər. Tətbiq istifadəçiləri zəng üçün nəzərdə tutulan düymənin profil şəklinin yanında olması səbəbindən səhvə yol verirlər. Belə ki, insanlar fotolara baxmaq əvəzinə səhvən zəng edirlər. Məhz bu səbəblə WhatsApp istifadəçiləri səsli zəng düyməsinin yerindən məmnun deyillər. Yanlışlıqla zəng edən istifadəçilər sonra bu zəngi dayandırsa da, qarşı tərəfə zəng gedir. Qarşı tərəfin zəngi görməsi isə lüzumsuz ünsiyyətə səbəb olur. WhatsApp-ın yeni dəyişikliyin səbəb olduğu narazılıqları nəzərə alıb-almayacağı isə hələlik bilinmir. Ümid edirik ki, server son yenilənməsi ilə istifadəçilərini razı salacaq.

## Selfi çəkmək əvəzinə tətiyi çəkdi

Rusiyanın paytaxtı Moskvada gənc qız selfi çəkərkən özünü silahla vurub. Mühasib işləyən 21 yaşlı Viktoriya ofisdə silahla selfi çəkdirmək istəyib. Bunun üçün o, mühafizəçidən tapançasını istəyib, o da razılaşıb. Viktoriya silahı başına dayayaraq selfi çəkən vaxt səhvən silahın tətiyini çəkib. Nəticədə qız başından ağır yaralanıb və xəstəxanaya aparılıb. Onun hal-hazırda reanimasiyada olduğu deyilir. Hadisə ilə bağlı araşdırma aparılır. Silahına səhlənkar yanaşan mühafizəçinin aqibəti isə hələlik bilinmir. Onun yalnız işdən çıxarıldığı deyilir. Etdiyi məsuliyyətsizliyə görə cinayət məsuliyyətinə cəlb olunub-olunmayacağı isə bilinmir.

# İnstaqramdan milyonlar qazandılar

Nyu-Yorkun "Gagosian" Sənət Qalereyasında gəzənlər divardan asılmış instaqram şəkilləri ilə rastlaşırlar. Lakin şəkil sahiblərinin bu vəziyyətdən xəbəri yoxdur. Sənət qalereyasının divarlarını bəzəyən şəkillər Riçard Prinsa adlı bir sənətkarın əl işidir. Şəkillər 100 min dollara belə satıla bilir. Lakin Prince-nin istifadə etdiyi şəkillərin sahiblərinin bu vəziyyətdən xəbəri yoxdur. Bir çoxları şəkillərinin satıldığını gələn mesajlar nəticəsində öyrənir. Doedeere adlı bir instaqram istifadəçisi şəklinin hərraca çıxarıldığını öyrənsə də heç bir reaksiya verməyib və bu xəbərə sevindiyini deyib. Lakin bir çoxları PrinCeni məhkəməyə versə də heç bir nəticə əldə edə bilməyib.





## 13 min dollarlıq yemiş

Yaponiyanın məşhur məhsulu kimi tanınan Yubari yemişlərinin ilk məhsulları hərracda satılıb. İlk yetişən yemişlər 1,5 milyon yen, yəni 13 min dollara satılıb. Yaponiyanın Saporra şəhərindəki səbzə-meyvə bazarında satışa çıxarılan yemişləri hər kəs görməyə gəlib. Yubari yemişlərinin ilk məhsulları bahalı çaxırlar kimi hər kəs tərəfindən sevilir. Normal hallarda qiyməti 50-150 avro olan lüks yemişləri almaq şəhərdəki varlılar üçün olduqca önəmlidir. Adını Yubari şəhərindən alan yemişlər şirin və sulu olur. Şəhərdəki 150 yemiş istehsalçısı ildə 18 min avro qazanır. Olduqca çətin şərtlərdə qış aylarında yetişdirilən bu məhsulun tam yetişməsi üçün təxminən 105 günə ehtiyac olur. Meyvələri olduqca bahalı olan və bir almanın 3 dollara satıldığı Yaponiyada bəlli bir markanın satışa çıxardığı çiyələyin bir ədədi 415 dollara satılır.




QOÇ - Maraqlı görüşlərdə iştirak etmək üçün gözəl fürsətdir. Həttа bunun naminə fəaliyyətə də bir qədər ara vermək olar. Bu gün yeni işgüzar təkliflər alacağınız da istisna olunmur.

BUĞA - Təxminən saat 14-ə qədər cərəyan edən daxili sıxıntılarınız sonrakı müddətdə qaydasına düşəcək. Bu səbəbdən də vacib işlərinizi sonraya saxlayın. Büdcənizdə artım da gözlənilir.

ƏKİZLƏR - Fəaliyyətlə bağlı uğurlarınız mümkün olsa da, iş yerində həmkarlarınızla, xüsusən də rəhbərliklə ehtiyatlı davranın. Günün ikinci yarısında büdcənizi artırmağa yaxın olacaqsınız.

XƏRÇƏNG - Qarşılıqlı anlaşma üçün ideal gündür. Bütün görüş və sövdələşmələr xeyrinizə cərəyan edəcək. Maliyyə məsələlərini isə hələlik başqa vaxta saxlayın. Enerjinizi sevgidən alın.

ŞİR - Çoxdan bəri düşüncələrinizdə kök salmayan qərarlar verməyin. Çünki bu gün yeni fikir və ideyalar səmərəlilikdən çox uzaqdır. Axşama doğru qonaq timsalında çağrılacağınız gözlənilir.

QIZ - Mənfi yüklü Ay bürcünüzdə qərar tutduğu üçün bu təqvimi müəyyən gərginliklə başa vura bilərsiniz. Buna baxmayaraq, fəaliyyətinizdə müsbət sıçrayışlar da mümkündür.

TƏRƏZİ - Olduqca səmərəli gündür. Gələcəyiniz üçün böyük əhəmiyyət kəsb edəcək görüşlərdə iştirakınız mümkündür. Təşəbbüskarlığı əldən verməməklə təkliflərə razılıq verin.

ƏQRƏB - Günün ümumi ovqatı aşağı olsa da, qənaətbəxş məqamlar yaşayacaqsınız. Stressə düşməkdənsə gələcək planlarınızı konkretləşdirin. Axşama doğru ikitərəfli görüşlər səmərə verə bilər.

OXATAN - Olduqca təzadlı gündür. Uğurlu və xoşagəlməz olaylar tez-tez bir-birini əvəz edəcək. Bundan öz xeyrinizə istifadə etmək üçün prosesləri diqqətlə izləyib, obyektiv qərar çıxarın.

OĞLAQ - Təzə xəbərlər yolunuzu gözləyir. Bu, çox güman ki, öz doğmalarınız tərəfindən və ya onlar haqqında olacaq. Hər halda, şahidi olduğunuz yeniliklər ovqatınıza mənfi təsir göstərməyəcək.

SUTÖKƏN - Günün əsas tövsiyəsi kənardan dəstək ummaqdır. Təkbaşına fəaliyyətin uğurlu olmadığını nəzərə alıb ürəyinizə yaxın olanların köməyindən istifadə edin. Məntiqsiz riskdən uzaq olun.

BALIQLAR - Ulduzlar böyük dəyişikliklər astanasında olduğunuzu bəyan edir. Belə məqamlarda qətiyyən boş dayanmaq olmaz. Qarşınıza çıxan hər bir şansdan bəhrələnin. Uğurlarınız uzaqda deyil.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İynə yerinə dərman

Amerikanın Massachusetts Texnologiya Universitetində, son kursda oxuyan Karl Şolhamer qeyri-adi kəşfi ilə tibb aləminin diqqət mərkəzindədir. Kəşfinə görə 15 min dollar mükafat alan Şolhamer bir kapsulun içərisinə inyeksiya dərmanı yerləşdirərək yeni bir peyvənd hazırlayıb. Kapsulu udaraq müalicə edilən xəstələr iynə ağrısından xilas olacaqlar. 2 santimetr uzunluğu və 1 santimetr eni olan kapsul həzm sisteminə çatdığı zaman açılır və sorulur. Yeni dərmanı içənlər ağrı hiss etməyəcəklər. Çünki mədə-bağırsaq sistemində ağrı hiss edilmir. 3-5 il ərzində istifadəyə verilməsi gözlənilən yeni kapsul iynələrin peyvənd müalicəsində istifadəsi gözlənilir.



Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300